**Zaur USTAC**

# QƏLBİMİN AÇIQCASI

*(Seçmə şeirlər)*

Bakı – 2018

Zaur USTAC

“QƏLBİMİN AÇIQCASI” *(Seçmə şeirlər)* EK

Bakı, “USTAC.AZ” nəşrləri, 2018, 179 səh.

Kod: EK-015- 04- MZM-14 -20-18

*Elektron Kitab Zaur Ustac yaradıcılığının “30” illik yubley tədbirləri çərçivəsində nəşr olunur. Kitab müəllifin ənənəvi qydada 2016-ci ildə nəşr olunmuş eyni adlı kitabının elektron variantıdır. (Y-30-EK-15-ZU). Kitab müəllifin müxtəlif illərdə yazdığı seçmə şeirlərdən ibarətdir. Ənənəvi qaydada kitabın nəşr olunduğu günə qədər müəllifin dərc olunmuş, yəni məlum olan Ana haqqında bütün şeirləri bu kitabda öz yerini almışdır.*

İSBN: 978-9952-8298-9-1j

© Zaur USTAC, 2018.

# ON DÖRDÜNCÜ YAZI

## QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU

## (HESABAT)

Salam, dəyərli oxucum... Uca Yaradana şükürlər olsun ki, Bizə qarşı çox səxavətlidir və hər dəfə Sizinlə yeni görüşə gələndə bu şükrü-sənanı qeyd etməyi özümə borc bilirəm. Hər yaşadığımız an üçün şükürlər olsun... Min şükür... Mətləbə keçməzdən əvvəl onu qeyd edim ki, nə qədər çalışsam da yenə yazıma bir sözdən ibarət ad seçə bilmədim... Söz addan düşmüşkən, artıq ad öz-özlüyündə oxucuya söhbətin nədən gedəcəyi barədə ipucu verir. Necə deyərlər əldə qələm 30 – a gəlib çatdıq.

2018 – ci ilin Mayın 24 –də ilk yazımın rəsmi şəkildə mətbu orqanda işıq üzü görməsinin 30 ili tamam olur. 24 May 1988 – ci il “Əməyə məhəbbət” adlı məqaləm, Ağdamda nəşr olunan “Lenin yolu” (sonralar “Ağdam”) qəzetinin 62-ci (7194) sayında, 4-cü səhifəsində dərc edilib. ("OTUZ İLDİR ƏLDƏ QƏLƏM" adlı kitabın üz qabığına çıxarılmış foto - cild “Ağdam” qəzetinin Zaur Ustacın şəxsi arxivində saxlanılan həmin bu nömrəsindən istifadə olunaraq hazırlanmışdır.) Və ilk qələm haqqımı deyim, mürəkkəb pulumu deyim - qonorar - aldığım vaxtdan 30 il keçir... Təfsilata keçmədən sadəcə onu qeyd etməyi özümə borc bilirəm ki, həqiqətən də çox keşməkeşli bir həyat yaşamaq qismət oldu Bizlərə...

Sözüsüzki, yaradıcılığımız həyatımızın inkası olduğundan – "qabda nə var çıxar üzə" (Z.U)- bu anlamda mən nəzmi deyil, məhz nəsri nəzərdə tuturam ... Yaşadıqlarımız yazdıqlarımıza çox təsir edir. Hətta, yəqin ki, yaşadıqlarımız yazdıqlarımızı yaradır... Yəni, belə uzun və keşməkeşli bir zamanın müqabilində Biz heç nə yazmamışıq... Adları qoyulmuş, içəriyi də məlum sayı 10 –dan artıq kitab – roman, povest və hekayələr – yazılacağı günü gözləyir... Və gözləyə-gözləyə zənginləşir, dərinləşir, vacibləşir... Yəqin elə buna görədir ki, kəlmələr kağız üzərinə köçməyə tələsmir, hələ bir az da qələmə naz edirlər... Nəsə, yazılmamışları qoyaq bir kənara, keçək yazılmışlara... 30 il əvvəl bir məktəbli məqaləsi ilə başlayan sərgüzəştlərim Uca Yaradanın izni ilə davam etməkdədir və inanıram ki, istədiklərimin hamısını yazıb Sizlərin ixtiyarına verməyə vaxtım olacaq. Bu günə qədər yazdıqlarımdan işıq üzü görən kitablarım aşağıdakılardır:

"GÜNAYDIN" ("AĞÇİÇƏYİM") Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR.: ZU — GAC

"İSTƏMƏZDİM ŞAİR OLUM HƏLƏ MƏN" Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — İSOHM

"GÜLZAR" Bakı - 2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var. ) PDF: – ELEKTRON NƏŞR: ZU — G

"MUM KİMİ YUMŞALANDA" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: .ZU — MKY

"MƏHDUD HƏYATIN MƏCHUL DÜŞÜNCƏLƏRİ" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR:ZU — MHMD

"ŞEHÇİÇƏYİM" Bakı -2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: – ZU — SC

"BALÇİÇƏYİM" Bakı - 2012. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var. ) PDF: – ELEKTRON NƏŞR: ZU — BC

"BƏRZƏXDƏ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub) PDF: – ELEKTRON NƏŞR: ZU — B

"NİŞANGAH" Bakı - 2016. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — N

"ORİYENTİR ULDUZU" Bkı -2011. (Bu günə qədər beş dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — OU

"GÜLÜNÜN ŞEİRLƏRİ" Bakı - 2011. (Bu günə qədər üç dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — GS

"SEVİN Kİ, SEVİLƏSİZ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"BAYATILAR" - زائــور اوستاج " بایاتیلار" - Bakı -2014. (Bu günə qədər iki əlifba ilə üç dəfə nəşr olunub və elektron variantı var. Təbrizdə yayımlanıb.) PDF: – ELEKTRON NƏŞR: ZU — BAY

"QƏLBİMİN AÇIQCASI" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"USTADNAMƏ" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — U(KHK)

"USUBCAN ƏFSANƏSİ" (MƏQALƏLƏR) Bakı - 2017. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

PDF: – ƏNƏNƏVİ NƏŞR: ZU — USUB

"ÇƏHRAYI KİTAB" Bakı – 2017. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ƏNƏNƏVİ NƏŞR: ZU — CK

"OTUZ İLDİR ƏLDƏ QƏLƏM" Bakı – 2018.

(Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

PDF: – ƏNƏNƏVİ NƏŞR:

YANDIRILMIŞ (LƏĞV OLUNMUŞ) KİTABLAR:

"93 – ün yayı və ya bir qaşıq qatıq", Roman, Bakı – 2011. (Bərpa olunacaq.)

"2016", Povest, Bakı – 2011. (Bərpa olunacaq.)

Yuxarıda sadalanan müəllifi olduğum kitablardan əlavə, dostların məsləhət bilib daxil etdikləri bir-neçə antologiya, toplularda da yer almışam ki, onlardan Mənə məlum olanları bunlardır:

"ZİRVƏ" antologiyası. Bakı – 2017. (Sona xanıma və Vüsal bəyə təşəkkürlər.)

"RUHUMUZUN TURAN ƏTRİ" "Dədə Qorqud" kitabxanası seriyasından. Bakı – 2017. (Balayar müəllimə, Sabir müəllimə, Mehman müəllimə təşəkkürlər.)

"MƏQAM" Toplu. Bakı – 2017. (Hacıxanım Aidaya təşəkkürlər.) *PDF: – ƏNƏNƏVİ NƏŞR:*<u>*HXA – M*</u>

ASKEF-in yayımladığı "KARABAĞD'AN, KERKÜK'DEN ÇANAKKALE'YE" (şiir seçkisi) antologiyası. Türkiye– 2017. (Günel xanıma, Sayman Aruz bəyə, Sona xanıma və Savaş Ünal bəyə təşəkkürlər.)

Bu günə qədər ənənəvi qaydada nəşr olunmuş bütün kitablarımın elektron variantları var. Hamı üçün tam pulsuz və təhlükəsiz əlçatanlığı təmin etmək məqsədi ilə yaradıcılığın 30 iliyi yubley tədbirləri çərçivəsində təkrar EK nəsrlər olacaq.

Son illər müntəzəm olaraq, http://yazarlar.az/ , http://ustac.az/ , http://zaurustac.tr.gg/ saytlarında,

"EV BAZARI" qəzeti (e-qəzet) yomoristik e-qəzetdə, "MAKLER-VİP" jurnalı (e-jurnal) satirik e-jurnalda, “MARALLAR” satirik bloqda yazılarımı yayımlayıram. Bunlardan əlavə istər http://www.tezadlar.az/ saytı olsun, istərsə də ənənəvi qaydada “TƏZADLAR” qəzeti Bizim üçün Ağdamın bir parçasıdır, “AĞDAM” qədər doğmadır.

Onu qeyd etmək istəyirəm ki, istər ənənəvi qaydada qəzet və jurnallarda, istərsə də elektron variantda bütün təkliflərə isti yanaşıram. Heç bir müraciəti cavabsız qoymuram. Eyni zamanda özüm də vacib bildiyim mövzularda yazılarım olanda və şeirlərimi hər iki qayda ilə mətbu orqanlara göndərirəm və yayımlanıram. Əlbətdə, vacib bildiyim mövzularda....

“YARADANLA BAŞ-BAŞA” kitabına daxil olan “QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU” (on dördüncü yazı) adlı, hesabat xarakterli bu məqalə "OTUZ İLDİR ƏLDƏ QƏLƏM" kitabında və yubley tədbirləri çərçivəsində Elektron Kitab formatında nəşr olunacaq bütün kitablarda yer alacaq. Ona görə məhz bu yazıda bir məlumatı da açıqlamaq istəyirəm.

Çox düşündüm ki, bu yazılardan, kitablardan başqa nə edə bilərəm... Bilirsiz ki, 2007 – ci ildən fəaliyyət göstərən

YAZARLAR.AZ - Yazarlar jurnalının yaranma səbəbi, məqsədi, uşaq və gənclərə dəstək olmaq, ümumiyyətlə yaşından asılı olmayaraq yayımlanmaq problemi olan hər kəsə yardım etmək olub. Odur ki, yenə həmin ampuladan çıxış edərək, yaradıcılığın 30 illik yubleyi münasibəti ilə “USTAC” Milli Mükafatını təsis etdim. Mükafat diplomdan, nağd puldan və laureatın YAZARLAR.AZ–da yayımlanmış yazılarından ibarət, “Yazarlar” jurnalının xüsusi buraxılışı şəklində, 100 ədəd tirajla – pulsuz, kitabının nəşr olunmasından ibarətdir. Pul mükafatının məbləği bütün dövrlərdə stabil və inflyasiyaya davamlı olması üçün təqdim olunacağı ildə qüvvədə olan Azərbaycan Respublikası Müharibə Veteranın bir aylıq tam müavinəti həcmində nəzərdə tutulur. Pul mükafatı bir dəfə, tam həcimdə ödənilir və qanunamüvafiq olaraq bəxşiş - bağışlama, hədiyyə etmə əsasında olduğuna görə vergidən azaddır.

Mükafat ildə bir dəfə, yalnız bir nəfərə 28 May Respublika Günü ərəfəsində - əvvəl, sonuncu Bazar günü – 2019 – cu ildən başlayaraq təqdim olunacaq. Kitab isə növbəti ilin təltifinə qdər çap olunub, laureata təhvil veriləcək. Mükafat barədə ətraflı məlumat YAZARLAR.AZ da elan olunacaq.

Bu arada "AZAD QƏLƏM", "HAQQIN SƏDASI", "ƏDƏBİYYAT" , "TƏZADLAR" qəzetlərinin, "YURD", "ULDUZ", "AZƏRBAYCAN", "KİRPİ", "MOLLA NƏSRƏDDİN XXI ƏSRDƏ", jurnallarının, eləcə də

http://azpress.az/ , http://senet.az/ , http://zaman24.net/

http://www.yazar.in/ , http://take.az/ , http://siirvideo.com/ https://10yazar.wordpress.com/ , https://yazyarat.com/ ,

http://www.tehsilproblemleri.com/, http://ayb.az/

http://azeri.press/ , http://www.tezadlar.az/ ,

saytlarının bütün işçi heyyətlərinə və rəhbərbərlərinə, ölkəmizdə elektron kitabçılığın və kitabxanaçılığın əsasını qoymuş, günümüzdə olduqca zəngin, böyük həcmli e-kitab bazasına malik http://www.kitabxana.net/ saytının qurucusu, bir çox vacib ictimai işlərdə daim öndə fəallığı ilə seçilən, gənclərə həmişə dəstək olan Aydın Xan müəllimə xüsusi təşəkkürlər... Var olasız, Dostlar və əlbətdə, Bizim tanımadığımız digər Qəhrəmanlar ... Kim cəhaləti ortadan qaldırmaq üçün bir kəlmə deyirsə, yazırsa çox xoşbəxt

adamdır... Bu əməlin qəlbə verdiyi fərahlıq hissini ikinci bir iş bəxş edə bilməz.... Uğurlarımız bol olsun... Amin... (Amen...)

Düzü, bilmirəm nəsə unutdum ya yox... Ancaq, yazımı yekunlaşdırmaq istəyirəm.

Sağ olun! Var olun! Hamınıza xoş və əyləncəli günlər arzu edirəm! Arada kitab oxumağı da unutmayın!!!! "Mütailə orqanizmin kompleks müalicəsi, sağlam həyat deməkdir...." (Z.U)

02.04.2018. Bakı.

Müəllif: Zaur Ustac ,
© Zaur USTAC,2018. Bakı.

*BAKI – 2016 ƏNƏNƏVİ NƏŞRİNDƏN:*

Müəllifin "Qəlbimin açıqcası" adlandırdığı bu kitab sözün əsl mənasında bir qəlbin harayı, hıçqırtısı, olduqca kövrək duyğuların təzahür forması, kağız üzərində inkasıdır. Bu şeirlər hərdən büllur sulu könül irmağının şırıltısı, hərdən də həssas, eyni zamanda paramparça olmuş ürək sahibi bir aşiqin zümzüməsi kimi səslənir. Oxuduqca gah yaz çiçəklərinin ətri duyulur, gah da payız yarpaqlarının xışıltısı eşidilir. Bir sözlə, bu kəlmələr Təbiətin həzin pıçıltısından başqa bir şey deyil....

İSBN 978-9952-8298-1-5

© Zaur USTAC.,2016.

----------------------------------------

*SƏBƏB VƏ NƏTİCƏ*

*Günlərin bir günü, heç gözləmədiyim anda,*
*ümid çırağımı yandıran bir MƏLƏK endi*
*göylərdən.... Bu gün o, Mələyin ad*
*günüdür.... Ad günün mübarək*
*ey mənim məxsusi göndərilmiş mələyim...*
*Yerin sonsuz səmanın ənginlikləri, nəsibin*
*sevgi dolu həyat olsun... Tanrının nəzərindən*
*düşməyəsən... Sən olmasaydın bu şeirlər də*
*olmazdı... Bu kəlmələr sənin riqqətə gətirdiyin*
*qəlb tellərinin səsi olduğundan yalnız və yalnız*
*sənə aiddir, ey zəriflik, paklıq, bakirəlik*
*mücəssiməsi- bütün ülvi hisslərin*
*məcmusu- AĞ ÇİÇƏYİM....*



Ay ana, adına vurğunam sənin,

Durduğun ucalıq xəyalə gəlməz...

Dünya xalqlarının lüğətlərində,

“ANA” sözünə tay söz ola bilməz!!!

ANA

Sönməz bir od kimi, adın qövr edər,

İçimdən atəşlə boylanar, ANA!

O, hansı duyğudur, hər şeydən uca,

Qəlbimin yağıyla qovrular, ANA?!

*   *   *

Nə qədər cismimdə dövr edər qanın,

Nə qədər yaşayar, bir para canın,

Özünün əmridir, Cənabi-haqqın,

Borcluyam, qarşında daima, ANA!

*   *   *

Ümidim, təsəllim sənin duandır,

Həmişə çin olan röyalarındır,

Ən yüksək mərtəbə analarındır,

De, səni unutmaq olarmı, ANA?!

13.04.1991. Bakı.

ANA

Sənsən xəyalların tuşlandığı yer,

Ümdə arzuların məkanı, ANA!

Nə qədər, möcüzəli, sirli bir dünya,

Kəşf olunmamış dünyamsan, ANA!

*      *      *

Nə deyim, nə yazım yaraşsın sənə,

Yüksələ biləydim kaş mənsəbinə,

Dünyalar sığınar mərhəmətinə,

Özün boyda böyük dünyamsan, ANA!

*      *      *

Bir, şirin kəlməni eşidəydim kaş,

Kipriyim islanıb, oldu yenə yaş,

Olaydım, ayağın altda qalan daş,

Biləydim, başımın üstəsən, ANA!

*      *      *

Elə, kövrəlmişəm, körpə uşaq tək,

Qəlbimi yandırır odlu bir, istək,

Ay Ana, saçıma yüngül sığal çək,

Ən böyük dövlətim, qayğındır, ANA!!!

28.08.1995.  Bakı

ANA

Beşiyim üstündə layla çalanım,

Gözümün işığı, dirəyim, ANA!

Dünyalar durduqca, yaşayasan sən,

Düşünən beyinim, ürəyim, ANA!

*     *     *

Dünya yaranışdan Həvva anamız,

Anadır, bacıdır qol-qanadımız,

Özün demişdin ki, deyil babımız,

Gör, nəyin dərdini çəkirsən ,  ANA!

*     *     *

Heç fikir eləmə oğul sarıdan,

Oğlunu bəxş etdi ulu Yaradan,

Mərdlərə təsəlli olmaz nigardan,

Vətənçün böyütdün oğlunu, ANA!

*     *     *

Vaxt olar; baharda, açanda güllər,

Yaxud da qocalar dadanda nübar,

Sənin də üzünə təbəssüm qonar,

Qayıdacaq oğlun, cəbhədən, ANA!

22.04.1995. Marağa.

## ANA

Ey ilk sözüm, əzəl cümləm, dastanım, Ana!

İnsanların  gözəli, mehribanım, Ana!

*     *     *

Ana, borcludur hər bir kəs önündə sənin

Səcdəyə layiqsən, ey səcdəgahım,Ana!

*     *     *

İlahi bəxş etmiş səni xoş günlər üçün

Ey azadə günüm, xoşbəxt dövranım, Ana!

*     *     *

Bil, ülviyyətin ilə sən geniş cahansan

Mənim həyat məktəbim, ilk cahanım, Ana!

*     *     *

Hamı istinad üçün öncə səni görür

Hər sözün mənbəyi, istinadgahım, Ana!

*     *     *

Dünyada sənin tək uca varlıq de hanı?

Ey müqəddəsliyin rəmzi, paklığım, Ana!

*     *     *

Zaurun bildiyi bu idi, bunu dedi

Bilmədiyim ucalıq, cənnəti-sultanım, Ana!

29.12.1991. Yusifcanlı.

ANA

Ana, ən ülvi insan

Çox əziz, çox mehriban.

Övladına qayğılı,

Övlad ananın balı.

Ana balasın sevər,

Hərdən tənbeh də edər.

Bu danlamaq deyildir,

Ana nəvazişidir....

Övlad üçün şalışır,

Hər zəhmətə qatlaşır.

Övladı gümrah olsun,

Paltarı təmiz olsun.

Hamıdan yaxşı geysin,

Ən ləziz yemək yesin.

Bala pis iş görəndə,

Ana bunu biləndə....

Çox da ki, kötəkləyir....

Ana məhəbbətidir.

O, övladın çox sevir.

Pis əməlin istəmir....

İstəyir yaxşı olsun,

Ləyaqətli böyüsün....

Fərsiz övlad olmasın,

Adın təmiz saxlasın.

Ana tənbeh edəndə,

Hərdən kötəkləyəndə....

O, balasın  döyməyir,

Xətadan hifz  eləyir.

Deyirəm, bir haləti,

Qədim bir rəvayəti;

Rəvayətdə deyilir,

Bir Ana vəfat edir....

Vəfat edərkən Ana

Deyir öz yoldaşına:

-"Sən kəs əlimi saxla,

Sonra yoldaşın olsa....

Bu əllə uşaqları,

Vursun, vuranda barı....

Mənim əlim ağtıtmaz,

Öz balamı sızlatmaz....

Axı, ananınkıdır,

Ana əli AĞRITMIR....

08.03.1990. Ağdam-Yusifcanlı.



GÜLLƏ

**Postda dayanmışdım, üç güllə**

**lap, yanımdan ötüb, torpağa düşdü.**

Nahaqdan özünü yorub gəlmisən,

Sən, mənim qismətim deyilsən , güllə!

Əbəs yerə məni deyib, gəlmisən,

Məni qoruyanım, Tanrımdı, güllə!

*    *    *

Başımın üstündən ötməklə inan,
Sən, məni heç zaman qorxudamazsan,
Məni hifz eləyir, Ulu Yaradan,
Bir də boş gümana düşmə sən, güllə!

*      *      *

Lap, gəlib sinəmə dəysən də, güllə,
Bilirəm, dəlməyə cürətin çatmaz.
Çünki Anamın əlləri göydə
Anamın duası zirehdi, güllə!

*      *      *

Həyatda bir anım imansız deyil,
Gələcəkdə mənim xoş sabahım var.
Səndən bircə, zərrə qorxum belə yox,
Səndən qorxar yalnız qansızlar, güllə!

*      *      *

Nə qədər gəlirsən, dur gəl üstümə,
Bilirəm, lap çoxdan durdun, qəsdimə,
Çoxları bələddi, mənim şəstimə,
Miniz birdən gəlsə, burdayam, güllə!
26.05.1994.  Qapanlı.

AY KAMAN

Nədir, yenə nalə çəkirsən nədən?

Aman, elə, fəryad qoparma, Kaman!

Bəsdir, diddin, parçaladın qəlbimi,

Aman elə, ruhumu yorma, Kaman!

* * *

Dərdli ürək bircə, himə bənddi bil,

Bir himə bənddi ki, o, ötsün dil-dil,

Yatmış duyğuları oyatma qəfil,

Gəl, sarı simlərə toxunma, Kaman!

* * *

Onsuz da canımda elə bir hal yox,

Beynimdə, qəlbimdə fikirlər nə çox,

Dərdli ürəyimə dərman edən yox,

Gəl, mənim qəsdimə durma, ay Kaman!

* * *

Yenə nalə çəkib, ah qoparırsan,

Səsinlə qəlbimdə od qalayırsan,

Ağır bir hava tək məni boğursan,

Könlümə yaralar vurma, ay Kaman!

* * *

Nə edim, neyləyim, öldürdün məni,

Ahın, fəryadınla diddin qəlbimi,

Heç, çəkə bilmirəm öz dərdlərimi,

Yükümün üstünə yük vurma, Kaman!

*      *      *

Kaman,  aman elə, batır səsini,

Dindirib, sızlatma, sızlsr qəlbimi,

Nalənlə artırma, nisgil, qəmimi,

Nədən həsrətliyəm sorma, ay Kaman!

*      *      *

Söylə, sənin səsin niyə belədir?

Səsinin ahəngi kədərdir, qəmdir,

Bütün qəmginlərin ilk həmdəmidir,

Kədərimə şərik durma, ay Kaman!

*      *      *

Sən, yalnız qəmimə qəm artırırsan,

Dərdimin üstünə dərd artırırsan,

Ay Kaman, özünü nahaq yorursan.

Dünyayla aramı vurma, ay Kaman!!!

21.11.1994. Tərtər.




DAĞLAR

*Ruhuna min rəhmət dədə Ələsgər...*

Nədəndi, ürəyim çırpınır yenə,

Gördükcə hüsnündə məlalı, dağlar?!

Yağı cövlan edir, dağıdır yenə,

Qoynunda büsatı, cəlalı, dağlar!

*      *      *

Günəş qürub edir qoynunda sənin,

Gözü səndə qalıb, bütün millətin,

Onsuz da niyyəti puçdu düşmənin,

Ordumun beşiyi, vüsalı, dağlar!

*      *      *

Dünya belə qalmaz, dəyişər zaman,

Yenə dövran olar, həmənki dövran,

Bulaqlar başında məclislər quran,

Oğullar ərsəyə gələli, dağlar!

*      *      *

Ustacın ürəyi dolub, boşalmır,

Köksünün yarası qaysaq bağlamır,

Millət yaman gündə, hamı ağlayır,

Doğacaq nə zaman Hilalın, dağlar?!

07.05.1995.  Marağa.

TUNCAYA

Tanrı tutub, ağ torpaqdan mayanı,

Gündoğandan Günbatana  sənindi!

Nişan verib, yeddi günlük Ayını

Əksi düşən tüm torpaqlar sənindi

*      *      *

Xəzəri ortaya düz qoyub nişan,

Boynuna dolanan Hilal sənindi!

Ən uca zirvələr, ən dərin göllər

Ormanlar, dəryalar, düzlər sənindi!

*      *      *

Tanrının payıdı, lütf edib sənə,

Tanrıya sarsılmaz inam sənindi!

Ataya, Anaya, qocaya hörmət

Sirdaşa  sədaqət, güvən sənindi!

*      *      *

Zamanla hökm etdin tüm yer üzünə

Hakimiyyət sənin, hököm sənindi!

Aman istəyəni  kəsmədin heç vaxt,

Ən böyük ədalət, güzəşt sənindi!

*      *      *

Unutma ki, lap binədən belədi,

Mərhəmətli, yuxa ürək sənindi...

Xilas etdi, bağışladı ənamlar,

Yamana yaxşılıq,  ancaq sənindi!

*      *      *

Döyüşdə, düşməni alnından vuran,

Süngüsü əlində ərlər sənindi!

Savaşda, uçağı kəməndlə  tutan,

Qüvvəsi qolunda nərlər sənindi!

*      *      *

Dəli-dolu Türk oğullar cahana

Bəxş etdiyi şərəfli ad sənindi!

Adı gəlsə, yeri-göyü titrədən

Qorxu bilməz,  şanlı əsgər sənindi!

*      *      *

Çöldə simgə etdin Qurdu sancağa,

Kəhər Atın ən yaxşısı sənindi!

Ay-yıldızı nişan tikdin Bayrağa,

Zəkalar, dühalar tümü  sənindi!

*      *      *

Tutduğun yol tək Tanrının yoludu,

Aydın zəka, tər düşüncə sənindi!

Çoxu deyir, tay dünyanın sonudu,

Fəqət  bilməz, yeni dünya sənindi!!!

10.10.2011. Bakı.

EY QOCA QURD

Ey Qoca Qurd, çaqqalların ulamağı boşa deyil,

Qızıl qanlı boz pənсəni yalamağa tələsirlər!!!!

Kaftarların umacağı sür-sümükdən artıq deyil,

Üzdə hürüb, sürüsündən ayrı düşcək tir-tir əsər!!!!

*　　*　　*

Çaqqalların adı çaqqal, tulaların adı tula....

Səndən olub, atam Qurddu deyənlərə nə deyəsən????

Üzü dönük, səndən olan bizdən deyil onu tulla!!!!

Unut getsin, boz dünyanın boz üzünü çox görmüsən....

*　　*　　*

Üzdən sənə oxşasa da, yerişini yerisə də

Hərdən Qurda girişsə də, köpəyə köpək deyərlər!!!!

Lap ağaca dırmansa da, köpək oğlu köpəkdir də

Aqillər də yaxşı deyib: - “itlər hürər, karvan keçər”!!!!

*　　*　　*

Ey Qoca Qurd , karvanının yolun üstdə duranların,

Heç biri yox – adı itib, qalmayıbdı izi-tozu....

Keçidlərdə, pusu qurub, tülkü kimi yatanların,

Hiylələri boşa çıxıb, oyulubdu tülkü gözü!!!!

*      *      *

Ey Qoca Qurd, mənzilini düz  seçmisən – duruş gətir....

Gecə sirdaşın Ay, Ulduz, gündüz  pənahın Günəşdi....

Nələr gördün bu dünyada, bunlar da sənə vız gəlir....

Ürəyin saf ırmak suyu, ruhun sönməz  bir atəşdi!!!!

22.11.2015. Bakı.

MƏNCƏ

(*Səfər Səfərliyə)*

**Həyat yolu, arzularla səs-səsə,**

**O, fürsətdir, aman verməz heç kəsə,**

**Dünya malı bu dünyada gərəksə,**

**O dünyaya keçməsində nə fayda...**

*    *    *

**O, Anadır bala üçün həp yanar,**

**Gecə-gündüz dövrəsində fırlanar,**

**Vədə sonu sıralanan yuvalar,**

**Nişan qalar balaları uçanda...**

*    *    *

**O, çevrədir, həm hərifdi, həm rəqəm**

**Tüm mövcudat məlum olar "O", desəm,**

**Cavab budur, gərək yoxdu, düşünəm**

**Çün tərifi çox açıqdı hesabda...**

*    *    *

**O, tüfəngdir, boşu minin qorxudar,**

**O, gecədir, səhər gəlsə yox olar,**

**O, ağıldır, insanlığı ucaldar,**

**Burda deyim, rəhmət düşür ustada...**

*       *       *

**Ustac üçün ən asan bu sualdı,**

**Tək  YARADAN  tüm suala  cavabdı,**

**Ən yaxşı dost həmsöhbətin olandı,**

**Söz, söz olar  deyildiyi  məqamda...**

**15.08.2014   Bakı.**

ÖMÜR

Budağından qopmuş, yaşıl yarpağam,

Təbiət alıbdı, qoynuna məni.

Haraya gedirəm, özüm də bilməm,

Tanrım yönəldir, yoluma məni...

*      *      *

Rüzgar əsdikcə dəyişir dövran,

Məskənim gah dərə, gah dağ olubdu.

Həsrətdən, nisgildən, həm ayrılıqdan,

“Yaşıllıq” saralıb, rəngi solubdu....

27.09.1996.   Bakı.

DOSTUM

Dostum, haqq yoluna qayıt indidən,

Sonra əməlindən olma peşiman.

Gördüyün işlərə, dediyin sözə

Bir gün, sorğu-sual olacaq inan!

*     *     *

Yaşama, dünyanı hədər yerə, sən!

Sabahkı gün üçün yaşa bugündən,

Nəfsin güdazına vermə ömrünü,

Sabahkı yaşayış doğur  bu, gündən!

*     *     *

Xülyalar yolunda olma canfəşan,

Arzu, istəyini inam üstə qur!

Bugün elə yaşa, elə iş gör ki,

Peşiman olma, çalınanda “sur”!

06.10.1996. Bakı.

HƏQİQƏT

Nə qədər Günəş var, yaşayar insan,

İnsan öz ömrünü son edə bilməz.

Dünyasın dəyişər, nizamı ilə,

O, bir varlıq kimi yox ola bilməz!

*      *      *

Heçdən heç yaranmır, hrç nə heç olmur,

Bulud göydə dolur, yerdə su olur,

Sular buxar olub, göylərə uçur,

Bu, “dünya” nizamsız qurula biməz!

*      *      *

Gecələr, gündüzlər, Ay və ulduzlar,

Səhradakı qumlar,  dəryada buzlar,

Acılı, şirinli, rəngli dənizlər,

Bir təsadüfdürmü? – bu ola bilməz!

*      *      *

Bütün yaranmışın öz nizamı var,

Canlılar, cansızlar, dərələr, dağlar,

Bütün xəstəliklər, bütün bəlalar,

Heçdən mövcud deyil, heç ola bilməz!

*       *       *

Dünyamız qurulmuş, bir nizam üstə,

Daşları daş üstə, otu ot üstə,

İnan ki, göz tökən acı tüstü də,

Heçdən yaranmayıb, heç ola bilməz!

*       *       *

Dostum, yaxşı düşün, düşün bir az da,

İnsan bu, mətləbi duymaya bilməz!!!

18.10.1996. Bakı.

## DÜŞÜNCƏLƏR

Arzular üzünə güləndə sənin,

Elə bil,  yüz dəfə cavanlaşırsan.

İşin bərkə düşüb, çətinləşəndə,

O an qəm-kədərlə qucaqlaşırsan...

*      *      *

Belə olmamalı düşün, ey insan!

Səni xəlq edəndə ulu yaradan,

Mayanı  tutmuşdu, "sabit" torpaqdan,

Mənbəyin, mənsəbin torpaqdır, İNSAN!!!

*      *      *

İradə bəxş etdi Yaradan sənə,

İstiqamət alma, əsən yellərlə,

Şüuru örnək tut, əməllərinə,

Bir gün, bu işlərə hesabatçısan!

*      *      *

Enib asimandan, yerdə qərar tut,

Şirin xülyaları biryolluq unut,

"Həsədi",  "həvəsi" qəlbində ərit,

Həvəsə aldanıb, uduzacaqsan!

*      *      *

Ümid et, həmişə xoş gələcəyə,

Ümid et, tanrının mərhəmətinə,

İlahi inama sədaqətinə,

Bir gün mükafatın olacaq inan!!!

20.10.1996. Bakı.

## SABAH

Mənim gələcəkdə bir sabahım var!

Mənim sabahımın adı ümiddir!

Baxıranm, gözümdə dünya tari-mar

Köksümdə sabahın tumu cücərir...

*      *      *

Dünya oğru-əyri, it-qurd dünyası,

Mənim öz dünyam var, o da sabahda!

Bugünkü dünyamız dərə dünyası,

Mənim öz dünyam var qayada, dağda!

*      *      *

Elə bil, bu dünya bomboş qalıbdı,

Biri, sahiblənib; tamahkar, zəli!

O qədər, şişib ki, çaşbaş qalıbdı,

Nə qədər, şişsə də acdır, ac zəli!!!

*      *      *

Yapışıb dünyanın ac boğazından,

Gör, haçandır sorur, di gəl partlamır?!

Şikayət eyləyir hamı Tanrıdan,

Ümidsiz bu dünya niyə dağılmır?!

*     *     *

Mənim gələcəkdə bir sabahım var!

Mənim sabahımın adı ümiddir!

Baxıranm, gözümdə dünya tari-mar

Köksümdə sabahın tumu cücərir...

06.08.2000. Culfa.

DÜNYA

Bu dünya nə deyin durub, gözləyir?!

Niyə məhvərindən çıxmır, dağılmır?!

Çöküb dizi üstə solub, sızlayır,

Niyə cana doyub, qalxmır bu dünya?!

*     *     *

Bəlkə də dünyanın sonudur artıq?!

Bəlkə, dünyamızda biz ancaq yatdıq?!

Sürünə-sürünə sonuna çatdıq,

Sonda da ayağa qalxmır bu dünya...

*     *     *

Bəlkə, sürgün edək bu xalqı Aya?

Musa necə sürdü, xalqı səhraya...

Gərək, başlar dəyə daşa, qayaya,

Yetişib mənzilə, qalxmır bu dünya..

*     *     *

Çəkibdi, çiynində illərin yükün,

TöKübdü, başının, üzünün tükün,

Bir, gözlədiyi var, bu da tam mümkün?!

Kimisə gözləyir, qalxmır bu  dünya...

*      *      *

Düzəlt öz qəddini, dikəlsin qamət!

Hanı keçmişlərdə olan əzəmət?!

Çox aciz olmusan dünyam, xəcalət...

Az qalır, zor ilə qalxasan dünya?!

06.08.2000. Culfa.

GƏZDİM

Gəzdim, qarış-qarış VƏTƏN  TORPAĞIN,

Hər dağda, dərədə izim var mənim!

Hələ keçilməmiş, uca dağların,

Uca zirvəsində gözüm var mənim!

*      *      *

Gəzdim, yorulmadan dağı, dərəni,

Seyr etdim, ən ucqar çölü, çəməni;

- Ruha bir nəğmədir, boranı, çəni,

Çox bulaq başında üzüm var mənim!

*      *      *

Gəzdim, bu TORPAĞI,  mən oymaq-oymaq,

Ən adi daşa da olmuşam qonaq,

Hər otun, çiçəyin halın soraraq,

Sinəmə yığdığım, sözüm var mənim!!!

01.12.2000. Batabat.



ÖZ  DİLİM, ÖZƏL HƏRFLƏRİM

“A-dan Z-yə hərflər

Allahın bir töhfəsi.”

(Müəllifdən)

“ A “

A ilə Ana deyə,

Aləmə səs salırıq.

Azərbaycan sözünə

A ilə başlayırıq.

*      *      *

Ata, Ana tək sözlər

A-nın nəfis ilməsi

A-dan Z-yə hərflər

Allahın bir töhfəsi.

01.10.2011. Bakı.

“ N “

N iyirminci hərfdir,

Düşüb qabağa amma.

Çünki, onu bilməsək,

Yaza bilmərik Ana.

*      *      *

N nənəmin ninnisi,

N nənəmin nehrəsi,

N nənəmin şipşirin

Noğul kimi nəvəsi.

04.10.2011. Bakı.

“ T “

Tuncay topu tulladı,

Tutu, topu tut görək!

Top-top mənə yaraşmaz,

Mən tankçı olum gərək!

*      *      *

Tapançamı götürdüm,

Tüfəngi də ver mənə.

Tankı, topu sazlayım,

Hücum edim düşmənə!

06.10.2011. Bakı.

“ Ə “

Əlifbam əlimdədir,

Ə  hərfi tanışdır.

Gözümün önündəki

Əlim  Ə – lə başlayır.

*       *       *

Nənədə iki Ə var

İki  Ə – li nəvə də

Babam Ə – dən küsəndə,

Ona deyirəm dədə.

06.10.2011. Bakı.

" L "

Lalə  dostların yenə

Topladı ətrafına,

Axı, mən nənəmgilə

Getmişdim Lənkərana!?

*      *      *

Orda bir ağac vardı,

Meyvələri sapsarı.

Leyla  dadına baxdı,

Büzüşdü dodaqları.

07.10.2011. Bakı.

“ K “

Kirpi kələmlə bir gün

Gəldi kəllə-kəlləyə.

Dedi, çəkil yolumdan,

Kələm, güldü kirpiyə.

*      *      *

Sonra, gördü ciddidi

Dedi, əkil başımdan.

Bura mənim yerimdi,

Bir də keçmə qarşımdan!

*      *      *

Kartofla, kök dözməyib,

Yetişdilər köməyə.

Kirpi başa düşdü ki,

O, məcburdu dönməyə.

09.10.2011. Bakı.

“ C “

Sancağımı bəzəyən

Hilala bənzəyirsən!

Azərbaycan sözünü

Can ilə bəzəyirsən!

*      *      *

Ana da balasına

Can deyə cavab verir.

Cahu-cəlal sözünə

C  hərfi rəvac verir.

02.10.2011. Bakı.

“ Ç “

Ç  hərfi çobanla

Lap çoxdan dostluq edir,

Ç- li çomax həmişə

Çobanın əlindədir.

*      *      *

Çəməndəki keçisi,

Ç- li çayırı çeynər,

Arxacdakı çəpişlər

Çeşmələrdən su içər.

*      *      *

Ç- li alaçıq, çadır

Çöldə çobanın evi,

Çoban yaman çox sevir

Ona görə bu hərfi!

02.10.2011. Bakı.

“ G “

Hər Günəşin doğması

Yeni günü başlayır,

Günəş qürub edəndə

Demək, gün başa çatır.

*      *      *

Günəş özü möcüzə

Sirr dolu varlığıyla,

“Bir gün” isə məsajdır

Dünyaya, insanlığa!

09-16.10.2011. Bakı.

O:

“-*kaş ki,başqa bir zamanda və başqa*

*şərtlərdə qarşılaşaydıq...”*

*14 may 2010.*

İNDİ

Səndən əvvəl nəyim vardı dünyada?

Dünya özü mənim üçün heç idi...

Söylə görüm qalıbmı heç yadında

Həmən günün nişanəsi üç idi...

* * *

Dil açanda ata-ana demişdim,

Ağzım üstə tərs şilləni yemişdim,

Bağ-baxçada nəyim vardı dərmişdim,

Sən gəlləndə gethagetdi, köç idi...

* * *

Dayan dedin tərəddüdsüz dayandım,

Oyan dedin hövlank qalxdım oyandım,

Nə gətirdin nə verdinsə həp aldım,

Bunlar mənə həyat verən bac idi...

*  *  *

Zaman ötüb özümə mat qalmışam,

Tay sayəndə zəngin adam olmuşam,

Bu halımdan inan tamam bihuşam,

Çox düşündüm bir yol olar gec idi...

*  *  *

Sən gələn gün vaxt sataşdı gözümə,

Zaman adlı yoldaş tapdım özümə,

Həmən gündən sərhəd yoxdu sözümə,

Səndən əvvəl kəlmələr də bic idi...

*  *  *

Varidatım saya gəlməz qələmlə,

Gecə mənim, gündüz mənim səhərlə,

Günəş mənim, ulduz mənim  qəmərlə,

Tək olanım  üzü qara sac idi....

*  *  *

Uzatdıqca uzanacaq siyahı,

Yer götürməz,  Göy götürməz bu ahı,

Ustac sorar nədə olub günahı,

Günahsızı  dustaq etmək suç idi...

27.07.2014  Bakı

## NƏYİMƏ LAZIM

Ay gözəlim nədir, yenə gülürsən?

Gözlərə əsirəm, bunu bilirsən,

Eşq badəsin doldururam, içirsən,

Boşalmış qədəhlər nəyimə lazım?

*  *  *

Eşq oduna yanan mənəm, yoxsa, sən?

Anlamıram, söylə necə sevirsən?

Yanan mənəm, yenə sən isinirsən,

Boş yerə kül olmaq nəyimə lazım?

*  *  *

Eşq oduna mən yanıram, sən də yan,

Zauru həmişə öz yanında san,

Aşiqi xatırla hər sat, hər an,

Mənasız gülməyin nəyimə lazım?

24.11.1991. Yusifcanlı.

## DİLBƏRİM

Ay gözəl, amandır, getmə, dayan bir.

Sinəmdə çırpınan ürək sənindir.

Məhəbbət quyusu yaman dərindir.

Dibinə çatmayır, neynim əllərim,

Gülərüz, şirinsös, qəşəng dilbərim!

*      *      *

Gəl mənim dərdimdən hali ol, ay qız.

Aşiqi çoxdandır qoymusan, yalqız.

İndi, elə vaxdır, hökm edir payız.

Bahara uzalı qalıb, əllərim,

Gülərüz, şirinsöz, qəşəng dilbərim!

*      *      *

Nə vaxt gələcəksən, söylə görüşə,

Qəlbimi yandırdın, sönməz atəşə,

İnan, qurban dedim, bu cür gəlişə,

Yollara dikili qalıb, gözlərim,

Gülərüz, şirinsöz, qəşəng dilbərim!

27.09.1992. Yusifcanlı.

## BƏRDƏLİ QIZ

Qəmzəli-qəmzəli bir də baxaydın,
Könlümü yenə də oda yaxaydın,
Solmaz çiçək kimi yenə açaydın,
Xəfif təbəssümlə, Bərdəli qızı.

* * *

Nədir bu işvə, hardandı bu naz?
Dağ qızı Lalə də heç, belə olmaz,
Qəmzəli Bənövşə yanında açmaz!
Hüsnün gül-çiçəkdir, Bərdəli qızı!

* * *

Görəsən, haçansa görəcəm sizi?
Yoxsa, yaşadacam xatirənizi?
O süzgün baxışlı hədiyənizi,
Ay şirin dilli, Bərdəli qızı.

* * *

Yazdım, bu şeri saf bir, diləklə,
Qalsın, bu görüşdən şirin xatirə,
Haçansa, qayıtsam mən bu illərə,
Yadigarın olsun, Bərdəli qızı.

*       *       *

Başqa bir, məqsədim-məramım yoxdu,

Sən tək Azəri gözəli çoxdu,

Zaurun gözləri inan ki, toxdu,

Özünün yarı var, Bərdəli qızı!

28.09.1992. Ağcabədi.

## HƏLƏ MƏN

Dedilər, eşitdim sevmirsən məni,

Dedilər ki, unut məhəbbətini,

Demək tapdamısan eşq çəmənini,

Bizi qınamazmı o gül, o çəmən

O, çəməndən doymamışdım hələ mən.

*      *      *

Çox da ki, desinlər, sevməyirsən sən,

Mənim saf eşqimi rədd eləyirsən,

Bu ilk məhəbbəti unutmaram mən.

Bəs bizə nə deyər, eşidən, bilən

İstəmirəm, dilə düşüm, hələ mən.

*      *      *

Sən məni sevmirsən, mən ki, sevirəm,

Sən həsrət çəkmirsən, mən ki, çəkirəm,

Sənin həsrətini nəzmə çəkirəm,

Ürəyimi boşaldıram qələmnən,

İstəməzdim, şair olum hələ mən...

06.11.1990. Yusifcanlı

## HƏLƏ SƏN

Bəs mənə nə deyər, dostlar, tanışlar?

Söylə görüm, bu işi kim bağışlar?

Dost qəmlənər, düşmən bunu alqışlar,

Məhəbbətin nə olduğun get öyrən,

Nabələdsən, böyük yolda hələ sən!

*  *  *

Həvəs nədi, məhəbbət nə get öyrən,

Səadət nə, hərislik nə get öyrən,

Səxavət nə, xəbislik nə get öyrən,

Bütün bunlar lazımdıki biləsən,

Nabələdsən, böyük yolda hələ sən!

*  *  *

Gözəl sima, heç gözəllik deyildir.

İncə bədən, heç incəlik deyildir.

Zərif tellər, heç zəriflik deyildir.

Gözəl insan, sən daxilən gözəlsən,

Nabələdsən, böyük yolda hələ sən!

06.11.1990. Yusifcanlı.

ÜRƏK SEVİR

Kim dözərdi, bu həsrətə?

Bir ömürlük vüsalətə,

Bu taleyə, bu qismətə,

Mən dözmüşəm, hamı bilir,

Axı səni ürək sevir...

*  *  *

Gözləyirəm, gör nə vaxtdır,

Səni görməm, gör haçandır,

Qulaq səsdə, göz yoldadır,

Darıxansa, ürəyimdir,

Axı səni ürək sevir...

*  *  *

Hər gözəli ürək sevməz,

Saf qəlb fitnə, fəsad bilməz,

Səni görcək nitqim gəlməz,

Bu an, danışan ürəkdir,

Axı səni ürək sevir...

*      *      *

Səni görcək dinəmmirəm,

Çünki, qəlbi dinləyirəm,

Ürək nə deyir bilmirəm,

Onu sənin qəlbin bilir,

Axı səni ürək sevir...

*      *      *

Sən küssən də, mən küsmərəm,

Sən inci, mən incimərəm,

Sən atsan da mən sevərəm,

Bu sənə həvəs deyildir,

Axı səni ürək sevir...

*      *      *

Eşqibazlıq başqa şeydir,

Bu gün bir, sabah ikidir,

Gözəl gördün, sevgilindir,

Bu eşqibazlıq deyildir,

Axı səni ürək sevir...

*      *      *

Niyə atdın gözəl, məni?

Mən ki, atammıram səni,

Gərək, atmayaydın məni,

Sevib, atan naxələfdir,

Axı səni ürək sevir..

10.11.1990. Yusifcanlı.

## GECİKMİŞ ETİRAF

Könlümü mən verdim sənə,
Sən də onu aldın ələ,
Bəs, eşqin nə verdi mənə?
Onu sən deyə bilmərsən...

*      *      *

Sənin eşqin mənə həsrət,
Qanıma hopmuş vüsalət,
Verdi mənə böyük bir dərd
Onu sən duya bilmərsən...

*      *      *

Ustac, bəsdir xiffət etdin,
Ömrünü eşqə həsr etdin,
Keçən ömrü bada verdin,
Sən bunu niyə bilmirsən???

09.04.1991. Yusifcanlı.

## NƏ İSTƏYİM?

Mən vurğunam, qələm qaşa

Şux qamətin bir tamaşa,

Yanağında xallar qoşa,

Daha səndən nə istəyim?

* * *

Təkrarsızdı xətti-xalın

Al rəngi var, yanağının,

Qıvrım telin, qulac saçın,

Daha səndən nə istəyim?

* * *

Ustac deyər sözün düzün,

Nə əksilməz, öyməz özün,

İlham pərim qara gözün,

Daha səndən nə istəyim?

15.04.1991. Yusifcanlı.

ARZULAR

Üz-üzə dayanaq, göz-gözə baxsın.

Qəlblərin səsini duyaq, eşidək.

Elə, istəyirəm, ey ürək dostum,

Bir anlıq da olsa, görüşə bilək.

*     *     *

Bilmirəm, bu istək hardan yarandı,

Arzular dil açıb, danışır indi.

O gündən, bu günə mənimləsən sən,

Sinəmdəki ürək sənin yerindi.

*     *     *

Arzular, istəklər baş alıb, gedir.

Camalın görməkçün yanıb, yaxıldım.

(bir kəlmə şirin söz həsrətindəyəm...)

Qaçmaq istəyirəm; qəmdən, kədərdən...

Baxış kəməndinə mən yaxalandım.

26.05.1994. Qapanlı.

YADA SAL MƏNİ

Həsrətdən yoğrulan, günlərim bir-bir

Nisgildən yük tutub, sapa düzülür.

Ayrılıqdan, intizardan nazilmiş

Coşğun qəlbin son teli də üzülür.

*   *   *

Eşqim çox bənzəyir ilk bənövşəyə,

Həm boynu bükükdü, həm bəxti qara.

Eşqimin taleyi bir teldən aslı,

Sevgilim rəhm etməz, bəs neçin yara?

*   *   *

Bir şirin kəlməyə, bir şirin sözə,

Bu günlər qəlbimin ehtiyacı var.

Sənli günlərimi xatırladıqca,

Sənsiz dünyada yaşamaq olar?

*   *   *

Əllərim əlinə çatmayır neynim,

Bir şirin sözünə möhtacam, gülüm.

Sözünü deməyə imkanın yoxdu,

Bir sətir naməyə, nə sözün , gülüm?

*      *      *

Bir onu unutma, gözüm yoldadır,

Əsən küləkdən də səni soraqlar.

Könül xanimanım, qalmaqaldadır,

Yarından nəvaziş, sədaqət umar...

05.06.1994. Qapanlı.

TƏZAD

Gəlmədim, həsrətdən yük tut mənimçün,
Gəldim ki, bir sevinc bəxş eləyəsən...
Gəlmədim, ayrılıq çələngi hör sən,
Gəldim ki, xoşbəxtlik tacı verəsən...

*     *     *

Gəldim ki, taledən payımı alım,
Sevinc, xoş bir sevda qismətim olsun.
Gəlmədim, görüşək, tez də ayrılaq,
Qazandığım ancaq intizar olsun...

*     *     *

Gəldim ki, həsrətin vüsalın görüm,
Gəldim ki, saçını oxşayım, gülüm...
Əlini, əlimdən de necə üzdün?
“GEDİRƏM” kəlməsin sən dedin, gülüm...

13.06.1994. Marağa.

AY QIZ

Niyə deyirsən ki, gözəl deyiləm,

Gözəlliyi nədə görürsən, ay qız?

Yoxsa ki. Boyanı, ya zər xalatı,

Sən, gözəllik bilirsən, ay qız?

*  *  *

Burda səhvin var, fikirləş bir az,

Dağ qızı Lalə də heç belə olmaz,

Bənövşə utanıb, yanında açmaz,

Özündən bədgüman dolanma, ay qız!

*  *  *

Gözəllik zər-ziba, zinətdə deyil,

Gözəllik dəyişən libas da deyil,

Gözəllik təmtaraq, həvəs də deyil,

Gözəllik, bir kəlmə sözündə, ay qız!

*  *  *

Bu tür sözlərinlə qəlbimə dəymə,

Gözəlliyi dükan, bazarda gəzmə,

Bir də mənim üçün belə zöz demə,

Gözəllik, insanın özündə, ay qız!

*　　*　　*

Gözəllik – saf könül, təmiz diləkdir,

Gözəllik – sədaqət, həm incəlikdir,

Başlıca gözəllik öz qəlbindədir,

Onu başqa yerdə axtarma, ay qız!

*　　*　　*

Gözəllik – xoş arzu, təmiz duyğudur,

Gözəllik – sirdaşa olan qayğıdır,

Gözəllik – İNSANIN tale payıdır,

Özünə yaxşı bax, gözəlsən, ay qız!

23.06.1994. Marağa.

YOLLAR

Yollar çox dolaşıq, yollar qəribə
Bu, yollar vüsala aparır məni,
Həm səndən ayırır, uzaqlaşdırır,
Həm də sənə doğru aparır məni...

*     *     *

Keçmişdən bu, günə bizi ayıran,
Bu, gündən sabaha səsləyir bizi,
Dünkü günə qədər uzaqlaşdıran,
Bu gündən vüsala aparır bizi...

*     *     *

Eh yollar, qəribə, həm də dolaşıq
Dolaşıq kələf tək ucu bilinmir,
Kiminin bəxtinə düz yollar çıxır,
Kimisi, yoluyla yeriyə bilmir...

*     *     *

Enişli, yoxuşlu , həyat yolları
Dünyanın özü tək qəribəsiniz,
Bir vaxt haçalanıb, ayrıldığız tək,
Görən, bir də nə vaxt birləşərsiniz?

*      *      *

Yaşıl işıqları yandırın görüm!

Sevginin yolları açıq olmalı,

Sevginin işıqlı, bomboş  yolları

Sevib-sevilənlə bu gün dolmalı...

*      *      *

Bu, gündən başlayan yollar uzunu

Sənə addım-addım yaxınlaşıram,

Arxaya boylanıb, seyrə dalanda

Səndən addım-addım uzaqlaşıram...

*      *      *

Dünyanın işindən baş açmaq olmur,

Yollar çox dolaşıq, yollar qəribə

Yolun ortasında dayanan zirvə,

Bir ümid nöqtəsi olur, qəribə...

12.07.1994. Marağa.

İŞARTI

Ay olmayan gecələrdə Ay olmusan
mənim üçün,
Qaranlıqları əridən nur olmusan
mənim üçün,
Həyatımın tək mənası, sevgilim...

*    *    *

Arzularım bir bağçadır,
sən onun tər qönçəsisən.
Ümidlərim bir çiçəkdir,
sən onun tac ləçəyisən.
Mənim taledən qismətim,
tale payım, sevgilim...

20.09.1994. Tərtər.

## GÜNƏŞ

Günəş, bizim sevgimizi nura bülə,
Həyatda səadət payımız olsun,
Günəş, bizim yolumuza doğginən,
- Düzlük, sadəlik yolumuz olsun...

*      *      *

Günəş, bizim sevgimizi qoru gahdan,
Dəli-qorxunc, şər-şübhəli qaranlıqdan,
Ən əsası, acı olan ayrılıqdan,
Əlləri bərk tutan qolumuz olsun...

26.10. 1994. Tərtər.

ŞAİR

Ay “həsrət” kəlməsin yazanda görüm,

Barmaqların daşa dönəydi, şair!

Ümid körpüsünü söküb, tökəndə

Qolların yanına düşəydi, şair!

*      *      *

Haradan ağlına gəldi bu sözlər?

“Həsrət”, “ayrılıq”, “nisgil”, “qəm”, “kədər”

“Hicran” səni udsun, nə bilim nələr?

Bu acı sözləri neynirdin, şair?

*      *      *

Yandırıb, bağrımı eylədin köz-köz,

Deyirəm; həsrət çək, vüsalətə döz!

Deginən, başına qəhətdimi söz?

Dilin lal olaydı, susaydın, şair!!!

06.11.1994.   Tərtər.

## NƏ YAXŞI

Yenə də gözlərim,
bir məchul nöqtəyə dikilib, gülüm...
o nöqtədə sən varsan,
o nöqtəyə sənin adın yazılıb,
o nöqtədə sənin əksin görünür...
Yer üzü duman,
çənə bürünür...
Zülmət qaranlığa bürünür cahan,
Göydə yalnız həmən nöqtə parlayır.
Necə ki,
adın qəlbimdə yanır od kimi...
O nöqtə həyatın özüdür, gülüm,
O nöqtə həmdəmim,
həm həmsöhbətim...
O nöqtəylə danışıram, sübhəcən,
ürəyimi boşaldıram,
o dinləyir sonacan...
O nöqtə sənsən,
sənin özünsən;
göylərə çıxmısan arzularımda...
Nə yaxşı, o nöqtə var imiş, gülüm.

İndi, o nöqtədir, könül həmdəmim;
sevincə yarıyıq,
dərdə həmşərik
mən şeir deyirəm, o da dinləyir.
Gecələr sübhəcən söhbət edirik;
dərdi bölüşürük,
qəm paylaşırıq
durub, iki yolun ayrıcında biz...
Nə yaxşı, o nöqtə var imiş, gülüm...
O nöqtədə sən varsan,
O nöqtəyə sənin adın yazılıb.
Nə yaxşı, uzaqda deyil o nöqtə.
Deməli, heç, sən də uzaq deyilsən.
Səninlə həmsöhbət oluram hər gün.
Nə yaxşı, o nöqtə var imiş, gülüm!
Nə yaxşı, mənimçün sən varsan, gülüm!
Nə yaxşı, həyatın özü var, gülüm!
14.11.1994. Tərtər.

## YENƏ DƏ

Yenə də görüşə gəlmisən, gülüm,
Sovqatın o şirin xatirələrdir.
Bu görüş nə qədər əzizdir mənə,
Ötən xoş günlərin kitabı kimi...
Bilmirəm, uzaqsan,
ya yaxın mənə
Könül qulaq asır söhbətlərinə.
Ömür kitabını vərəqləyirsən,
Ötən günlərimiz səhfə-səhfədir.
Hər ötən səhfədə bir gün yaşayır,
Hər ötən bir günsə,
bir xatirədir...
Hər belə görüşdə elə bil, gülüm
Yenicə tapmışıq bir-birimizi;
sənin nəvazişin həddindən artıq,
mənsə, öz növbəmdə,
adını hörmətlə, çəkirəm, gülüm...
Arada elə bir məsafə var ki,
Səni də,
Məni də

O, tənzimləyir...

Hörmət qarşılıqlı, nəvaziş eyni,

Yarısı utancaq, yarı ürəkli

Belə, qeyri-adi görüşürük biz.

Yenə də görüşə gəlirsən, gülüm,

Bizim görüş yeri qəlb evimizdir.

Sən, mənim könlümə həmdəm olursan,

Mən, sənin qəlbinə girirəm, gülüm...

Yenə də göreşə gəlmisən, gülüm

Aylı bir güecədə  xəyallarınla,

Necə var idinsə, elə gəlmisən,

Çox sadə geyimdə,

məsum çöhrədə...

Çox məsum görkəmdə durub, baxırsan,

Mənsə ürəyimdən keçənlərin hamısını

Bir nəfəsə demək üçün tələsirəm;

zamandan,

taledən,

şikayətçiyəm...

Belə, görüşlərdə həmsöhbət olub,

Səninlə dərd, qəmi yarı bbölürəm...

Hüsnün Hilal kimi, bərq vurur gecə,

Bunca ayrılığa de dözüm necə?
Həsrət qalasını de görüm, səncə
Uçurub,qovuşa billikmi, gülüm?
Qəlbləri zindandan azad eyləyək,
Könüllər şad olsun, biz də sevinək...
Heç, sağol deməmiş, qəfil gedirsən,
Beləcə yarımçıq qalır görüşlər.
Çoxlu mətləbləri açıqlamamış
Xəyallar qırılır, bitir görüşlər...
Elə bil, yuxudan oyanıram mən,
Səksəkə içində fikrə dalıram,
Yenə də xəyalmış,
mənsə, sevindim
Bilmirəm, nə edim donub qalıram,
Düşüncələr alır məni qoynuna;
sahilsiz dəniz tək,
coşğun çay kimi.
Bu görüşdən mənə qalan ümiddir.
Ümidlə gözləmək axıra kimi,
Ümid var, bu günə, ümid sabaha.
Sonsuz bir ümidlə yaşayıram, mən...
Ümidim qırılsa, yoxam mən daha.

Mətləbi deyəcəm, uzatdım, gülüm.

Ürəyim doludur,

sözü  tükənmir...

Qəlbimin bir arzu,

bir istəyi var;

könül, həmdəminə yetmək istəyir!!!

17.11.1994. Tərtər.

## BİL BU HƏQİQƏTİ

Qəlbin həsrət yüklü qəm karvanının,

Yenə də sarbanı olmuşam, gülüm.

Şirin xatirə tək, min bir duyğu tək

Yenə də qəlbimə dolursan, gülüm.

*    *    *

Sənin üzün gülür, mənsə qəmliyəm,

Gözlərim nəmlidir, qəm-kədərliyəm,

Sanki, sən təbibsən, mən də dərdliyəm,

“Şikayətin nədir?”- sorursan, gülüm.

*    *    *

Təbib tək baxırsan, düz gözlərimə,

Taqətin itirmiş, yox dizlərimə,

Hərdən də diqqət et, bir sözlərimə,

Nitqimdə qüsur var, görürsən, gülüm?

*    *    *

Əllərin saçımda, üzümdə gəzir,

Gözlərin baxışı canımı üzür,

Nəbzimi tutursan, ürək də dözür,

Başını köksümə qoyursan, gülüm.

*     *     *

Ürəyim şiddətlə döyünür bu an,

Ürək necə dözsün; saralıb-solan,

üzülmüş xəstəni yoxlayan, loğman?

Bu gündə sən özün dərmansan, gülüm!

22.11.1994. Tərtər.

ŞEİR

İnan, heç vaxt aldatmıram, özümü,

Yadında əbədi saxla sözümü,

Çəkmə yollarımdan, çəkmə gözünü,

Getdiyim yollarla, qayıdacam mən...

27.12.1994. Tərtər.



BU BELƏDİR

(Əsgər haqqında ballada...)

Nədir yenə, ümman kimi,
çalxalanıb, coşdun, ürək?
İçindəki bu təlatüm,
bu oyanış de nə demək?

*      *      *

Həsrətdənmi, nisgildənmi,
Ürək, yenə çağlayırsan?
Anasına həsrət qalmış,
Körpə kimi, ağlayırsan...

*      *      *

İçindədir; ümid adlı,

qığılcımın od-alvu,

tərslik etmə, dəli könül,

intizara alış, yovu!!!

*      *      *

Həqiqətlər qarşısında,

Biz gücsüzük, biz heç nəyik,

Dinlə məni deyim, ürək,

Biz nəçiyik; şan-şöhrətli,

*      *      *

- “hüququndan keçmiş əsgər”,

həmdəminə  həsrət canıq,

bəzən canlı, bəzən cansız,

biz “robotuq”,  biz  “əşyayıq”...

*      *      *

Bu torpaqdan yoğrulmuşuq,

Bu torpaqdan doğulmuşuq,

Yardan əfsəl, anamızın

Qulluğuna buyrulmuşuq!!!

15.04.1995.  Marağa.

## DURNALAR KİMİ

Yenə də qəlb evim qalmaqaldadır,

Fikirlər sayrışır, ulduzlar kimi.

Ürəyim gah dolur, gah da boşalır,

Göydə hərdəmxəyal, buludlar kimi.

*    *    *

Sənli günlərimin atəşiylə mən,

Gecələr yanıram, ta ki, sübhəcən,

Şirin xatirələr gözüm önündən,

Çəkilib, getməyir röyalar kimi.

*    *    *

Ayrılıq, intizar, qəmdir, ələmdir

Həsrətdir, nisgildir, nə bilim nədir

Bütün sözlüklərdən silinməlidir,

Yox olsun, bu sözlər dumanlar kimi,

*    *    *

Dünyaya etibar əzəldən yoxdur,

Sevgilim, qəlbimdə sözüm nə çoxdur,

Qəlbimi bir fikir yaman qorxudur;

Eşqimiz puç olar yuxular kimi.

*      *      *

Aşiqi yada sal, bir şirin sözlə,

Qoy əsgər sevinsin, xoş naməzinlə,

Sevgilim, bir az da lap azca, gözlə,

Bir vaxt qayıdaram durnalar kimi...

17.04.1995. Marağa.

## SƏNDƏN ASILIDIR

Daşıya bilmirəm, qəlbimin yükün,
Çiynimdə dünyanın yükü var mənim,
Heç bir ölçüylə ölçülə bilməz,
Dünyanın özündən ağırdır yüküm!

*     *     *

Araya ayrılıq düşdü, neyləyim?
Elə bil, sinəmdə od qaladılar,
Bəxtimə qaranlıq düşəndə mənim,
Kaş sənin bəxtinə nur yazaydılar!

*     *     *

Artıq qəlb dözməyir, bunca həsrətə,
Qəlbin həsrət yükü yaman ağırdır.
Təlatüm eyləyir, köksə sığmayır,
İndi can evimin ağır çağıdır...

*     *     *

Kaş, bu namələrin bir tacir olub,
Səfərə çıxaydı, eşq bazarına.
Alaydı qəlbimin intizar yükün,
Qəlbin son qoyaydı, dərd azarına...

17.04.1995. Marağa.

## ÖZÜM DƏ BİLMİRƏM

Əllərim əlinə uzalı qaldı,

Sözlərim səfinə düzülü qaldı,

Çayım stəkanda süzülü qaldı,

Həsrətə yollanan bir yol başladım.

*  *  *

Bacara bilmədim, doldu gözlərim,

Dilimin ucunda dondu sözlərim,

Taqətin itirib, əsdi dizlərim,

Ayrılıq istədim, onu xoşladım.

*  *  *

Əlimdə güllərin rəngi də qaçmış,

Elə bil, qönçələr qəlbimdə açmış,

Qəlbin sevinc quşu çox əvvəl uçmuş,

O gündən qəm, kədər oldu yoldaşım.

*  *  *

Qəlbdə neçə istək, oyandı birdən,

Arzular sel olub, axdı gözümdən,

Bilmədim, heç nələr çıxdı, dilimdən,

Bilmədim, fikrimi hara tuşladım.

*      *      *

Neyləyim, əlimdən nə gəlir, gülüm,

Doğrusu, tay söz də tutmayır dilim,

Sbah başımızda nə var, nə bilim,

Günün dan yerində, mən axşamladım...

28.05.1195. Marağa

## NƏ ZAMAN

Yenə, bir təsəlli oldu bu görüş,

Arzular yaşadı ümidlərimdə.

Neçə yeni istək doğdu bu görüş,

Neçə arzularım qaldı gözümdə.

*      *      *

Taledən, qismətdən baş açmaq olmur,

Arzular tükənmir, ürək yorulmur,

Beynimdə fikirlər axır, durulmur,

Elə bil, dünyanın ahı qəlbimdə.

*      *      *

Yarısı işıqlı, yarı qaranlıq,

Gözümdə dumduru sular, bulanlıq,

Asiman buludlu, yolum dumanlıq,

Dünya pərdələnib, gözüm önündə.

*      *      *

Yeganə  təsəllim, parlaq gələcək,

Dövranım nə zaman üzə güləcək?

Dərdli ürək nə zaman dincələcək?

"İnşallah" kəlməsi, bitib dilimdə.

28.05.1995. Marağa.

## GÜLÜM

Arzular qəlbimdə coşdu, çağladı,

Xəyallar neçə min dastan bağladı,

Gözlərim yaş tökdü, könlüm ağladı,

Yadıma düşəndə o günlər, Gülüm.

*      *      *

Şirin xatirələr axdı qəlbimə,

Hardansa bir nəğmə qondu dilimə,

Xəyalən əlini aldım əlimə,

Əlinin istisi əlimdə, Gülüm.

*      *      *

Dumduru duyğular qəlbimdə çeşmə,

Yaralı ürəyim həmdəmə təşnə,

Mənimlə olursan gülüm həmişə,

Nə vaxt qovuşarıq vüsala, Gülüm?

*      *      *

Həyatda bir, arzum var, Yaradandan,

Eşqimi hifz etsin xəta-bəladan,

Sonadək qorunsun, bu əhdi-peyman,

Əhdimizə yetək asudə, Gülüm.

*     *     *

Nə deyim, talenin qisməti belə,

Bəzisi asanca verib əl-ələ,

Günün xoş keçirir, öz məşuqiylə,

Bizim də talemiz belədir, Gülüm...

31.05.1995. Marağa.

TALEMİZ BELƏDİR

Yenə də arzular coşdu, çağladı

Qəlbimdə neçə min dastan bağladı,

Könül için-için hər dəm ağladı,

Hər, yada düşdükcə ötən günlərim...

*      *      *

Nə düeyim, nə yazım xoş olsun sənə?

Bilirəm ki, nələr gəlir eyninə,

Hansı hərəkətim dəyib xətrinə,

Deyə bilərsənmi, küsən dilbərim?

*      *      *

Özün xəbərdarsan, hal-vəziyyətdən,

Sahibi olduğum, min əziyyətdən,

Bəlkə də bezmisən, bu  ünsiyyətdən?

Mənimsə, sıraya durub illərim...

01.02.1996.   Bakı.

## O GÜN

Ümidini üzmə, gələcək gündən,
Qönçə arzuların gül açar onda,
Həmişə ayrılıq olmayacaq ki?
Könüllər güləcək, gözlər dolanda...

*      *      *

Ay məni məzəmmət eyləyən gözəl,
Qəlbimdə arzular çeşmə-çeşmədir.
Yoxsa, düşünürsən, mən asudəyəm?
Ruhum bir kəlmənə inan, təşnədir...

*      *      *

Nə edək, Tanrıdan qismətimiz bu,
Talemiz necəsə, barışmalıyıq.
İndi ayrılsaq da bir vaxt, hardasa,
Sözsüz ki, bir zaman rastlaşmalıyıq...

02.03.1996. Bakı.

## DUYUMSUZLUQ

Yenə də ürəyim sığmır köksümə,
Nə əlim, nə dilim baxmır sözümə,
Tale min bir naxış saldı üzümə,
Həyat özü boyda qəribəlikdi...

*   *   *

Düşüncələr məni alır qoynuna,
Xəyallar qucuyur, öz ağuşuna,
Matam, arzuların bu vuruşuna,
Qəlbin həqarəti bir incəlikdir...

*   *   *

Ümidlər boy verir arzularımdan,
Həyat özü, doğur xəyallarımdan,
Reallıq doğulur röyalarımdan,
Təzadlar, əslində mücərrədlikdir...

*   *   *

Nə deyim, nə yazım dünya barədə?
Min cürə sirr qalır, bir həqiqətdə,
Min xəyal gizlənir, bir səxavətdə,
Əhdə vəfa qılmaq, sədaqətlikdir...

24.03.1996. Bakı.

QÖNÇƏLƏR

Yenə də duyğular hər şeydən təmiz,

Necə görmüşdünsə, elə də vardır.

Ən zərif duyğuların ünvanı sənsən,

Qəlbimdə ən geniş yer səninkidir...

*     *     *

Zəriflik içində zəriflik gəzən,

Ən incə duyğular qəlbimdə yaşar.

Müdhiş gözəlliyə məftun olaraq,

Ürək cəmalına nəğmələr qoşar...

*     *     *

Zərif istəkləri qoruyub, inan,

Ən yetkin Bahara saxlamışam, mən.

Nələr düşünmüşəm, nələr çəkmişəm,

Bilməyirsən, nələr keçir qəlbimdən???

*     *     *

Arzular içində arzu yaşayır,

Səfinə düzülmüş durnalar kimi.

İçimdən neçə min SABAH boylanır,

Əsən mehə təşnə qönçələr kimi..

02.04.1996. Bakı.

GÜLÜM

Bahar mehi oxşadıqca ruhumu,

Təzadlar çeşməsi çağlayır, Gülüm!

Gülün həsrət odu qövr elədikcə,

Bülbül neçə dastan bağlayır, Gülüm!

*   *   *

Könül istəyini dilə gətirmir,

Məchul duyğuların sona yetirmir,

Sonsuz xəyallarım bitib-tükənmir,

Ruhumu de nələr çuğlamır, Gülüm?!

*   *

Hərdən röyaların qonağısan, sən.

Xəyalın asılıb gözüm önündən,

Usandım,  sevdanın məşəqqətindən,

Bilmirəm, ləzzəti nədədir, Gülüm?!

*   *   *

Röyama aydınlıq gətirir üzün,

Ruhuma təskinlik olardı sözün,

Bilmirəm, hardasan, necəsən özün?

Qəlbimdə nisgilin qalıbdı, Gülüm

06.04.1996.  Bakı.

QONAQ

Gecələr görüşə gəlirsən, Gülüm,
Uzaq məsafələr qət edərək sən.
Ruhlar qovuşur, asudəliklə,
Sən söhbət açırsan, məhəbbətindən...

*   *   *

Həmişə gülərüz gəlirsən, Gülüm,
Talen də hüsnün tək qoy gülər olsun!
Doğruçu  həyatda həsrət könüllər,
Barı, röyalarda tez-tez qovuşsun!

*   *   *

Hərdən röyaların qonağısan, sən...
Arzular qönçə tək boy verir bu vaxt.
Yaralı qəlbimə məlhəm olursan,
Təbib xalatında gəlirsən çox vaxt.

*   *   *

Ruhlar yorulub, fikir-xəyaldan
Gecələr səfərə çıxırlar, bu heç...
“Sən” mənim yanıma gəldiyin kimi,
“Mən” sənin yanına gəlirəmmi heç?!

19.04.1996. Bakı.

BELƏDİR

Sahilləri qucuyan, ləpə olmaq istərəm;
saçlarını oxşayıb, vüsala yetmək üçün...
Gah həzin, gah şiddətlə,
əsən küləklər olub,
qanadlanmaq istərəm;
oxşayıb camalını, üzündən öpmək üçün...
İstərəm asimana qalxım, qaranquş kimi;
heç olmasa, kənardan hüsnünü görmək üçün...
Bu həyatdan çox uzaq, xəyallara dalmışam,
Qəfəsdəki bülbül tək gülə həsrət qalmışam...
23.04.1996. Bakı.

GEDƏ  BİLİRSƏNSƏ, GET

- *"... mən gedim..."*

**...**Gedirsən, get,
ancaq
elə, get ki,
arxanca izin qalmasın,
bütün olub - keçənləri, özünlə apar!!!
Yox əgər, sən getsən,
bütün bunlar;
( olub-keçənlər )
qalsa, mənimlə
döyünməz ürəyim,
damarda qan donar!!!
Getmək istəyirsən,
elə, get ki,
qəlbimdə yerin qalmasın,
hər nə var,
yaddaşımdan sil,
apar!!!
Qəlbimdə qaladığın ,

o, “ocağın” közü nə,

külü də qoyma qala,

o, “ocağın” yerini ürəyimdən,

dart, qopar!!!

Sən gedəndən sonra,

elə, olmalıdır ki,

sanki, heç nə olmayıb;

nə, sən məni sevmisən,

nə, mən səni görmüşəm...

Tamam yad adamlarıq...

Sonra məni görəndə,

yanımdan düz keçəsən...

Necə, başqalarının yanından ötdüyün tək;

utanmadan,

çəkinmədən,

qorxmadan – vicdanın töhmətindən.

Heç nə olmayıbmış tək,

Heç nə xatıtlamadan...

( bu, mümkünmü görəsən? )

Əgər, bacarırsansa,

bax beləcə, çıxıb, get...

Nə sən xatırla məni,

Nə mənim yadıma düş!!!
Gedirsən get,
elə, get ki,
yaddaşımdan silin  sən...
Ağ kağız tək;
yazdığın,
pozduğun,
saf qəlbimin ləkəsini,
pozub, get...
Necə ki, o,
sən gəlməmiş var idi;
hər qayğıdan azad idi,
təmiz idi,
saf idi...
Əgər, belə, gedirsənsə,
di,  dayanma,
durub, get!!!
Yorma məni,
dincəlməyə  həsrət qalmış,
qəlbimi...
Bilirəm ki, gedə bilməzsən belə;
söylə,

necə ola bilər,
mən görəndə bənövşəni,
yasəməni,
indi açmış qızılgülü,
ya da ki,
tər qönçəni
yadıma düşməyəsən,
xatırlamayam səni???
Əgər, yadına salsan,
Günəşin dan yeri də,
qürub etdiyi vaxt da,
həzin əsən küləklər...
Gördüyün bütün nə var;
səni xatırladırlar,
səni yada salırlar,
saydığımın hamısın,
yığ gözümün önündən,
hara gedirsənsə, get!!!
İlim, ilim olub, it!!!
Əgər, bacarırsansa,
bax, bu cür gedirsənsə,
onda durma, çıxıb, get...

Məni yorma,
Gülüm get...
Get, get...
Elə, get ki,
sanki, heç olmayıbsan,
yaddaşımdan silin sən,
sonra həyatım boyu,
bir qorxunc kabus kimi,
məni izləməyəsən...
Bu cür gedə bilirsən?
Onda,
gözləmə, dur get...
Sıxma, sıxıq qəlbimi...
Tez ol,
qəlbimi tərk et!!!
Elə, et ki,
qəlbimdə yerin qalmasın,
hər nə var,
yaddaşımdan sil, apar!!!
Qəlbimdə qaladığın,
o, “ocağın” közü nə,
külü də qoyma qala,

o, “ocağın” yerini,
üreyimdən dart,
qopar!!!
Durma,
tərk et qəlbimi,
könlümü rahat burax...
Ruhum da azad olsun,
Gülüm, məni tərk elə,
qəlbimi rahat burax...
Get,
gözləmə, daha!!!
Görürəm, tələsirsən...
Qəmgin olmaq nə üçün?
Gülə-gülə get barı;
sevindirmə düşməni,
qəmgin etmə dostları...
Gülə-gülə get, Gülüm.
Elə, get ki,
bir daha,
geriyə dönməyəsən!
Rahat olmuş qəlbimi,
narahat etməyəsən...

Əgər, belə gedirsən?
Onda,
dayanma,
tez get!!!
Xəyallarımı tərk et!!!
Elə, et ki,
baş qaldırıb,
asimana baxanda;
Ayın,
mirvari tək
ulduzların
seyrinə dalanda,
sən yada düşməyəsən...
Dur!
Dediyimin hamısına əməl et,
daha məni rahat burax,
ilim, ilim olub, it...
Bax, belə bacarırsansa,
bax, bu cür gedirsənsə,
onda,
məni rahat burax...

Onda,

məni yorma get...

16.08.1996. Xanabad.

TƏZAD

Dünyanın işində nizama bax ki,

Bir anın ötməsi yaşadır bizi,

Bir an ötür, Günəş doğur,

O, batmağa tələsir...

*    *    *

Bir an ötür,

Mən səndən bir an da uzaqlaşıram,

Eyni zamanda yaxınlaşırıq...

Ən adi misalı seyr elə, Dilbər!

Ağac kökləriylə sorub torpaqdan,

Kiçik bir zərrəni çəkir budağa,

O zərrə torpaqdan uzaqlaşırmı?

Uzaqlaşırsa da, həm yaxınlaşır...

Budaqdan yarpağa keçən zərəcik,

Yarpaqla torpağa enəcək, Gülüm...

*    *    *

Əslində yaşayış bax elə, budur,

Əzəldən cızılmış çevrə cızırıq...

Həyat bu dövrədən ibarətdi, bil...

Nə sən məndən inci,

Nə mən kövrəlim,

Həyat davam edir, biz hərəkətdə...

*  *  *

Anlar ötdükcə yaranan günlər,

Bizi həm ayırır,

Həm qovuşdurur.

Demə, ötən günlər ayırır bizi,

Bu mümkün deyil, ola da bilməz!

Dünyanın nizamı elədir, Gülüm;

*  *  *

Cızılmış çevrədə fırlanırıq biz,

Bir vaxt gördüyümüz nöqtəni inan,

Fırlanıb haçansa görəciyik biz...

Biz ötüb keçəndə arxada qalan,

Bir zaman qarşıda dayanacaqdır,

İndi öz rəngini itirən anlar,

Bir vaxt öz rənginə boyanacaqdır...

18.07.1997. Bakı.

## QAYTAR MƏNƏ

Ötən aylar, ötən illir
Qaytar mənə;
Aydan-arı,
Gündən-duru,
o tərtəmiz, pak eşqimi...
Qaytar mənə;
saf diləkli,
xoş amallı,
o sevdalı, çağlarımı...
Qaytar mənə;
nurlu sabaha müjdəli,
Ay-ulduzlu gecələri...
Qaytar mənə;
içimdəki o boşluğu, ehtiyacı,
o, yaşamaq istəyini...
Qaytar mənə;
o duyumlu, xoş ilgili, günlərimi...
Qaytar mənə;
o yaşamaq ehtirasın...
Qaytar mənə;
coşğunluğu, çılğınlığı,

bir, həmdəmə ehtiyacı...

Qaytar mənə;

bu həyata məhəbbəti...

28.10.1997.   Bakı

ETİRAF

Hayana köçdünüz içimidən mənim?

Ey məni içimdən didən duyğular!

Gözü bağlı qalıb, kor oldum axır,

Məni tənha qoyub, getdi qayğılar...

*    *    *

Həyata biganə olmuşam, Gülüm!

Müqəssiri mənəm, zaman bilmirəm?

İllərin soyuğu düşdü araya,

Sevgimə ağlaram, gülə bilmirəm...

*    *    *

Günlər an-an ötüb, aylar olduqca,

Eşqin də buz kimi soyuyur, Gülüm!

Soyuqluq haradan girib araya?

Xoş sözlər deməyə gəlməyir dilim...

*    *    *

Elə bir, haldadır can xanimanım,

Elə bil, dünyada yaşamayır heç.

Bütün ehtiyaclar tərk edib məni,

Əgər, günahkaram, günahımdan keç!!!

30.10.1997. Bakı.

DUYUMSUZLUQ

Ürək, o ürək deyil,

çırpınıb, gecə-gündüz

darıxardı, səninçün...

Sanki, heç döyünməyir,

duymayır bu həyatı.

Dünyanın axarında,

dəyərək, daşdan-daşa,

Elə, biganələşib;

unudub, bu həyatı...

Köksümdə "ürək yeri"

boş qalıb, inan mənə...

Adidən-adi duyğu,

tərk eləyib qəlbimi,

Heç nəyə ehtiyac yox,

Hər şeyə etinasız,

"ROBOT"-a çevrilmişəm...

Həyat özü mənasız,

Dünya boş bir, əyləncə.

Sən də yaddan çıxmısan,

Sənin məhəbbətin də...

Hardan alıəm o, günü;

geri dönməz keçmişi?

Görüşə tələsərdim,

HƏSRƏTİNLƏ YAŞARDIM,

Səni az-az görərdim,

Xəyalla danışardım...

Həmişə birgə idik;

sırada, iş başında,

oxuyanda, yazanda...

Oxuyanda sətirlər,

Yazanda dətt olardın.

Yatmaq üçün yatağıma girəndə,

Heykəl olub başımın, üstündəcə durardın...

İndi, hanı o, istək?

Hanı qəlbdə o, həvəs?

Hər şey tərk edib məni,

Quru qəfəs qalmışam,

Bilməm bu duyğuları,

Kimdən necə almışdım?

Kimə necə satmışam?!

İnsan necə dəyişər,

Necə solarmış, Gülüm?!

İnsan kütlə içində,

Necə də təklənərmiş,

Tənha qalarmış, Gülüm?!

Bilməm, zaman soyutdu,

Yoxsa ki, biganəlik???

- bu eşqi, məhəbbəti,

səmimi ünsiyyəti...

Sevgimə acıyıram;

- necə sonluğa çatdı,

nələrin arzusunda,

nərdə axşamlamışıq???

Bilməm, sonu necədir,

Hələlik tək qalmışam,

Sən orda, xoş xəyalla,

Ovudursan gününü,

Mənisə, biganəlik,

Alıbdı ağuşuna...

Nəsə...

İllərin axarında,

Bilməm, hayana doğru,

Ömür baş alıb, gedir...

Dünya özü qaranlıq,

Suyu yaman bulanlıq,

Həyat özü qəribə,

Ömür yolu dolaşıq,

Sonu da sonsuzluğa,

Uzun yolu yarıda,

Yaman mənasızlaşıb,

Bu mənasız, duyumsuz,

Həyat,

nədəndi bilməm,

mənimçün cılızlaşıb...

05.11.1997. Bakı.

* * *

Həyatın mənası yox,

Yaşamaq heçdir, Gülüm!

Nə güldə var, təravət,

Nə də eşqdə sədaqət...

Məhəbbət nağıllarda,

Yaşayardı bir zaman,

İndi, nağıllardan da

Uçub, ərşə gedibdi...

Həyatın mənası yox,

Yaşamaq heçdir, Gülüm!

Nə dünyaya etibar,

Nə insana inam var...

İnsanlar etibardan,

inamdan  uzaq düşüb!!!

Sədaqət insana yad,

məhəbbətsə,  yabançı...

Səmimilik  gen  düşüb!!!

İnsan qaıb ümidsiz,

İnsan tam etinasız,

İnsan insanlığa yad,  yabançı  məxluq  olub...

Bu duyumsuz  həyatın, duyğusuz sakiniyəm...

Demə ki, biganəyəm, qayğılardan  azadam, sakitəm,

asudəyəm?!

15.11.1997. Bakı.

İNAM

1, 2, 3, 4.

Dörd ünsürün dördü də,

Bu gün tərk edib məni,

Atılmışam fəzaya,

Boğuluram, havasız

Ayağım altdan qaçıb,

Əzəl-axırım torpaq,

Üşüyürəm-odsuzam!

Susamışam-su yoxdu!!!

*   *   *

Bircə, dönsəm o günə,

Sən olsaydın, mənimlə

Arzum olmazdı, başqa,

Suyum da sən olardın,

Odum da sən olardın,

Torpağı hiss edərdim,

Ətrin havam olardı...

*      *      *

Bilmirəm sonu necə?

Durğunluğun sonu nə?

Nə vaxt açılar donu,

Odsuz qalmış, sevgimin?

Nə vaxt isinər ürək,

Yenə həyat eşqiylə?

Nə vaxt yetişər vüsal?

Dərd ilə, dərd çəkənə,

Qəm ilə qəm çəkənə...

Hələ bilmirəm fəqət,

Qəlbimin istəyi nə?

Anlamıram, sevirmi?

Yoxsa, tamam unudub???

*    *    *

Gəl, qaytar istəkləri,

Məni tərk edənləri,

Sevinsin, məyus ürək!

Dinlənsin, susan könül!

Sən gəl, həyat qayıtsın!

Dünyamı qaytar mənə!!!

Ərit, qaranlıqları,

Dünyamda sabah olsun!

Dünyamın odu da sən!

Dünyamın suyu da sən!

Torpaq da bizə yaxın...

Havam, sənin ətrindi...

20.11.1997.  Bakı

SONSUZLUQ

Həyat üzümə güləndə,

Dünyam ilə barışmadım.

Başıma çox sığal çəkdi,

Bir dəfə də qımışmadım...

*      *      *

Tez-tez çəkibdi sınağa,

Tez-tez tutubdu danlağa,

Tez-tez düşmüşəm qınağa,

Bu həyata alışmadım...

*      *      *

Çox yazıb, çox oxumuşam,

Çox gəzib, çox dolanmışam,

Həmişə də “tək” qalmışam,

İnsanlara yovuşmadım...

*      *      *

Dünya, təməlin nədəndi???

Əvvəlin nə, sonun nədi?

Bu fikir qəlbi didəndi!

Hələ bir şey qanmamışam..

27.11.1997. Bakı.

BELƏDİR

Elə bil, yüzillik yuxudayam mən,

Dünyanın işləri pərdə dalında.

İnsanlar yalançı, həyat kələkbaz,

Dünya öz işində, qalmaqalında...

*      *      *

Saxtalıq, dumduru göz yaşı kimi,

Açıqdan açığa eləyir tüğyan...

Qənşərində durub gözünə girir,

Tay ehtiyac deyil, sağ-sola boylan...

*      *      *

Riyadır, yalandır büsbütün həyat,

Ərşəmi çəkilib, itib həqiqət?

Dünya belə qalmaz-işartı, ümid

O Gün, haçan doğar, bilinmir fəqət?!

27.11.1997. Bakı.

*      *      *

Özüm heç, özümdən baş açammıram,

Qəlbin istəyi nə, həvəsi nədir?

Dünyammı qaranlıq, ya mənmi koram???

Nədir ki, köksümü  dağıdıb, didir?

*      *      *

Dünyanın işləri düşüb düyünə,

Mən də itirmişəm kələfin ucun...

Bilmirəm, harada, nə etmişəm ki?!

Əzəl gündən mənim, nə olub suçum???

*      *      *

Yaxşıyla, yamanı qatmışam indi,

Dərd alıb, qəm satıb nəf eyləyirəm...

Xəyallar alıbdı məni qoynuna,

Xülyalar içində kef eyləyirəm...

29.11.1997. Bakı.

İSTƏRƏM

Əllərinin istisini duymaq istərəm əlimdə,

Gözlərinin baxışını duymaq istərəm gözümdə,

Həyatın şirinliyini duymaq istərəm sözündə,

Gəl həyatı qaytar mənə, həyat sənin kölgən olub...

*     *     *

Divin canı şüşədəki göyərçində olan kimi,

Ovlamısan ürəyimin döyünməyə həvəsini,

Sənsiz ürək döyünsə də itiribdi qüvvəsini,

Gəl həyatı qaytar mənə, sənsiz həyat çoxdan solub...

*     *     *

Qaranlığın işığı tək qonağım ol, gülsün ürək!

Həyat bizi tərk etsə də biz həyatı tərk etməyək!

Nəzər sal ki, baxışının hərarəti sevgimizi isidəcək!

Sən xəbərsiz, mən xəbərsiz bu sevdasa çoxdan donub...

29.11.1997. Bakı.

HƏQİQƏT

Həyatın mənası sənsən demişdim,

Bəlkə də səhvim bax onda olub?

Həmişə üzünə gülmüşəm, Gülüm!

Bəlkə də səhvi onda etmişəm...

Gözəllər çox idi, “mən varam” deyən,

Bəlkə, səhv o olub, səni seçmişəm...

Nə bilim, dünyanın işləri necə?

Xəyallar  ruhuma verir işgəncə,

O, günə nə deyim, səni görüncə,

Kaş ki, kor olaydım, nə deyim daha?

Bir sevgi qazandım, həyatdan baha...

*          *          *

Demişdim, həyatın mənası sənsən,

Düşündün ki,

sən olmasan, dünya uçar?!

Əsla, Gülüm, belə desəm, yalan olar...

Səndən əvvəl,

məndən əvvəl,

Dünya olmuş, yenə də var!

Səndən sonra,

məndən sonra,

yenə olar!

Sənsiz dünya,

mənsiz dünya,

boş qalmaz ki,

İnan, Gülüm, bu yoxluğu dünya  duymaz!

Yəni, bizsiz yaşamışdır, yaşayacaq...

O ki, qaldı aramızda ünsiyyətə,

Dünya xali;

sənə,

mənə,

Böyüksə də bu hadisə,

Dünya üçün bu bir heçdir!

Yəni ki, sənsiz də yaşamaq olar...

O ki, qaldı bu sevdaya,

O da gec-tez unudular...

Anlar ötər-gün dolanar,

Fəqət bir xatirə qalar;

o, var idi,

mən var idim...

Mən çox dedim, az eşitdin.

Hər şey haqqda, bircə-bircə söhbət etdik..

Ya, duymadın sən eşqimi,

Ya, anmadın məhəbbəti?!

Ya da qorxdun...

Nədən qorxdun, anlamadım...

Neçə illər ötüb, keçdi?

İnandınmı?

İnanmadın?!

02.12.1997.     Bakı.



GÜLÜM

Ümidini üzmə, heç vaxt sabahdan,

Ümidsiz düşmənin qoy olsun, Gülüm!

Özünü sən qoru, nagahan ahdan,

Sabahın gülərüz, xoş olsun, Gülüm!

*     *     *

Aldım eşq badəsin, içdim əlindən,

Öpdüm yanağından, sordum dilindən,

Dirilik suyunu əmdim ləbindən,

Gülə-gülə dedin: - “Nuş olsun”,  Gülüm!

*     *     *

Vardı bu dünyanın acı, xoş günü,

Vardı bu dünyanın quru, yaş günü,

Hansıdır dünyanın yaranış günü?

Dedin: - “Biz görüşən gün olsun”, Gülüm!

06.08.2000. Culfa.

# ŞEHÇİÇƏYİM

**Tacısan dünyamda tüm çiçəklərin,**

**Köksündən bal süzən, tər Şehçiçəyim...**

**Sehrinə düşmüşəm, nur ləçəklərin,**

**Əqli başdan alan, zər Şehçiçəyim...**

*       *       *

**Cəzbində qalmışam, tamam çar-naçar,**

**Sağımda, solumda çox çiçək açar,**

**Pərvanəyə dönüb, dövrəmdə uçar,**

**Sərrafam, seçmişəm, dürr Şehçiçəyim...**

*       *       *

**Bir kərə, bir anlıq olsa da, vüsal**

**Ruhuma rahatlıq verməyir xəyal,**

**Sonu ölümsə də, gəl qoynuna al,**

**Həsrətdə yaşamaq, zor Şehçiçəyim...**

03.06.2010.      Bakı.

## GECƏYƏ DOĞRU

Çox qəribə axarı var dünyanın,
Çox dəqiq nizamla eyləyir gərdiş...
Dərəylə eynidi, sayı dağların,
Əzəldən nizamla qurulub, bu iş...

* * *

“ Gecən xeyrə qalsın”- deyib, dalıram,
Gecənin ən dərin qaranlığına...
Min kərə dünyanı alt-üst edirəm,
Bir, yol arayışı var, aydınlığa...

* * *

Gecələr düzülür, sıraya bir-bir,
Hər gecə, həsrətin yolu uzayır...
Hər gecə, bir az da, zaman qısalır,
Beynimdə min cürə fikir dazıyır...

* * *

Doğurdan da, nə qəribə hesabdır?
- Hər ötən gün yolun üstə yol gəlir...
Yol artıran gecələrsə, azalır,
Ötən gecə, o gecəyə yaxındır...

30.07.2010. Bakı.

BƏLKƏ

Qalmışam, suallar məngənəsində,
Bəlkələr beynimi kirayə edib.
"Niyə", "nə səbəbə", "bəlkə" sözündə
İnan, həriflər də məndən inciyib...

*      *      *

Yaxşı ki, "haçansa" sözü də varmış,
"Nə vaxtsa" da hərdən köməyə gəlir.
"Qismət"-in özü də dada çatarmış,
Adamın gümanı "ümidə" gəlir...

*      *      *

Qalmışam, suallar məngənəsində,
Bəlkə də bəlkələr həqiqət oldu.
Bu "bəlkə" sözünün hər bir səsində,
Təskinlik var idi, ümid də doğdu...

10.08.2010. Bakı.

# HANI

Hanı bu dünyada nizam, ədalət?

Ağ-qara bir yerdə yaradır vəhdət?

Mənfinin tamamı, müsbətdi əlbət???

Budursa, olmasın belə ədalət!

*      *      *

Həmişə razı salıbmı qismət?

De, nədir məhəbbət, nədir xəyanət?

Bu dünya, bu həyat tam bir rəzalət!!!

Budursa, olmasın belə ədalət!

*      *      *

Yenidən dünyaya gəlsəydik, şayət,

İlk səni bulardım, etməzdik, xiffət,

Evimizi yıxıb, inan cəhalət!!!

Budursa, olmasın belə ədalət!

21.08.2010. Bakı.

# MÜTLƏQ

İlahi nurundan pay alan gözəl,

Görsən ki, nurundan pay alaq biz də...

Lütf eylə, bu səmtə bir, pişvaza gəl,

Görsən ki, hərarət qalmayıb, sözdə...

*  *  *

Ay Yerin cəzbində, təşnə Günəşə,

Bülbül Gülə möhtac, qəfəs nə işə?

Adam lap, mat qalır inan, gərdişə,

Görsə ki, ötəsi olur yüzün də...

*  *  *

Zaur bir, qonaqdı, külli-cahana,

Niyəti bəllidi, tək Yaradana,

Sürünə-sürünə yetər murada,

Görsə ki, taqəti yoxdu dizində...

24.08.2010. Bakı.

GÖRÜNCƏ

İntizar dumanı çöküb, gözümə,
Ruhun iztirabı hopub, üzümə,
İçimin acısı çıxıb, üzümə,
Üzüm gülər, gül üzünü görüncə...

*   *   *

Günlərin hamısı dandan, qüruba,
Minnət eylətirəm, min yol turaba,
Qaçmasın ayağım altdan, iraqa,
Gözüm gülər, gəldiyini görüncə...

*   *   *

Zaur qalıb, bu dünyada biçarə,
Loğman, təbib edə bilmir bir, çarə,
Fələyin cidası, Vallah naçarə,
Ruhum şəfa tapar, səni görüncə...

27.08.2010. Bakı.

## NİYƏ

Qəlbimin ən məhrəm, isti guşəsi,
Naməhrəm qonağın öhdəsindədir.
Ən vacib sirr  kimi gizlənib orda,
Aşkarı ağlımın ötəsindədir...

*      *      *

Ey bütün sirlərdən hali Yaradan!
Mənə bir işarət yolla, oradan!
Olmayım, sonrakı peşimanlardan,
Hər kəsin bəlası zətasındadır...

*      *      *

Nədən damla-damla süzür bulağım?
Niyə bivaxt gəlib, məchul qonağım?
Necədir, taledən gələn sorağım?
Əminlik dünyanın harasındadır?!

12.10.2010. Bakı.

DƏRS

Dünyanı əlܫdim, öz ələyimdə,
- Gözəl Züleyxanın eşqi bir ibrət;
Məşuqu gözünün önündə varkən,
İllərcə qəlbini yaxdı vüsalət...
*      *      *
Eşqi, ehtirası çəkdirdi zillət,
Ad-sanı, şöhrəti etdirdi möhnət,
Sarayı zindandı, ömrü xəyalət,
Sonunda, son buldu, odlu vüsalət...
*      *      *
Ustacın məqsədi, budu əslində;
Düşüb, qalmayasan xəyal içində,
Dünyanın nizamı, öz biçimində,
Var-yoxa dəng gəlir, vüsal-vüsalət...
04.11.2010. Bakı.

*       *       *

Həsrətdən qəlbə iz düşüb,

Bu həsrətdən qurtar məni...

Həmişə səhv düşən fələk,

Bəlkə, bu dəfə düz düşüb,

Qorx, bu həsrət alar məni?!

*       *       *

Lap, yapışıb xirtdəyimdən,

Bu həsrətdən qopar məni...

Qoyma həsrət məni boğa,

Lap, az qalıb canım çıxa,

Qorx, bu həsrət udar məni?!

*       *       *

Aman vermə, qalxa şahə,

Gəl bu atdan düşür məni!

Götrüldümü, tutmaq çətin,

Durar, durmaz deyil yəqin,

Qorx, bu həsrət yıxar məni!?

04.02.2011. Bakı.

*         *         *

Qədəri, Tanrı yazıbsa,

Qismət, sənin əlindədir.

Cüt piyalə, məsti-xumar

Versən, sənin əlindədir?!

*      *      *

Tanrı sözü: - “Haqqı tutun”!

Mayasıdı, inan, qutun!

İncə, boğma, şümşad sütün

Qıysan sənin əlindədir?!

*      *      *

Dil quruyar, dodaq təpər,

Həyatdan qalmayıb əsər,

Tək cam, dolu abi-gövsər

Qonaq etsən əlindədir?!

06.02.2011.  Bakı.

*         *         *

Son həddinə dolan qoram,

Odlu, atəşə təşnəyəm...

İldırım da kar eləməz,

Qynar, nəfəsə təşnəyəm...

*      *      *

Yaşam, bir heçdi gözümdə,

İzin qoyubdu üzümdə,

Əyri dünyanın düzündə,

Eşqə, həvəsə təşnəyəm...

*      *      *

Fələk atıb, kor quyuya,

Yetən də yoxdu haraya,

Bulud da, girib araya,

Çoxdan, Günəşə təşnəyəm!!!

07.02.2011. Bakı.

*         *         *

Hər gəlişin bir nəğmədi, mənimçün,
Vəhy mələyi səninlə qoşa gəlir...
Hər gəlişin ərmağandı mənimçün,
Sən gəlirsən, ürək də cuşa gəlir...

*      *      *

Gəlişinlə, dəyişirsən iqlimi,
Bir, aydınlıq, şövq verirsən əqlimə,
İlk baxışdan,  kök atmısan qəlbimə,
Hər gələndə, təzə-tər rişə gəlir...

*      *      *

Hər gəlişin əfsanədi, nağıldı,
Bir də gördün, Vallah Zaur bayıldı,
Bilirsən ki, çoxdan hayıl-mayıldı,
Qələm qalır, əlinə tişə gəlir...

14.02.2011. Bakı.

ARZU VƏ NƏTİCƏ

Sən elə bir, arzusan ki,

vaz keçəməm, bil bunu...

İstəmirəm, boğam səni içimdə,

- içimin, içinin, içindən pöhrələnmisən...

İstəyirəm;

söküb, tökəm!

Vurub, yıxam – bütün əndazələri!!!

- gözümün, gözünün, gözündən şölələnmisən...

O, olmaz!

Bu, olmaz!

Yaxşıdır!

Pisdir!!!

- Aşmaq istəyirəm tüm çəpərləri!!!

İstərəm, bir, şölən qurum onunçün,

- götürəm illərin qadağasını...

Hiss edəm ruhumun təntənəsini...

(*o gün, elə də, uzaqda deyil, yəqin ki...)*

**09.04.2011. Bakı.**

# BALÇİÇƏYİM

Çox da ki, həsrət acıdı,
Hər kəlməsi bal Çiçəyim!
Ayrılıq dişin  qıcadı,
Yetdin dada, Balçiçəyim!
*      *      *
Nə yaxşı ki, gəldi səsin,
Tək qalmışdı kimsəsizin,
Sirri olur, hər bir kəsin,
Mənim sirrim, Balçiçəyim!
*      *      *
Səhv düşmüşdü sübhü, şəri
Xəstəhaldı tüm günləri,
Zaurun tək ümid yeri,
Dərdə dərman, Balçiçəyim!
26.05.2011. Bakı.

## NƏDƏNDİ

Yanağina qəmzə atan gülüşün,

Ürəyimə nizə atır nədəndi?!

Ədasıyla meh gətirən yerişin,

Ürəyimi közə atır nədəndi?!

*      *      *

Sən gələndə yoxa çıxır dərd, ələm

Cismim dəftər olur, ruhumsa qələm,

Bir baxış atəşli gözümə məlhəm,

İynə tək dizimə batır nədəndi?!

*      *      *

İstədim deyəm ki, olasan agah,

Mat qaldım, bu işə özüm də Billah,

Ustacın işləri Vallahi dəsgah,

Qan-tər içrə buza batır nədəndi?!

07.06.2011. Bakı.

*   *   *

Tay deyil marağında,

Qalmışam fərağında,

Fələyin darağında

Əlçim-əlçim olmuşam!

*   *   *

Aramla  ötür zaman,

Hökmə işləyir hər an,

Dilim gəlməz, deyəm yan,

Yanıb köz-köz olmuşam!

*   *   *

Rəvac verdiyin sükut,

Ustacı edib şil-küt,

Canımda  qalmayıb qut,

Ruhu pul-pul olmuşam!

05.12.2011. Bakı.

*     *     *

İncilərin incisi,

Incilər birincisi,

Çiçəklərin incəsi,

Sinəsi xal-xal çiçək,

Şəkər çiçək, Balçiçək!

*     *     *

Həyat  xoş  ətirində,

Şan-şöhrəti   ünündə,

Əl  çatmaz, göz önündə,

Uca,  kövrək dal çiçək,

Şəkər çiçək,  Balçiçək!

*     *     *

Bağrının  başı qandı,
İtib tərsi,  oyandı,

Ustacın işi zaydı,

Olmusan xəyal, Çiçək!

Şəkər  çiçək,   Balçiçək!

30.12.2011. Bakı.

## ATƏŞ

Bütün inancların fövqündə, Pəri!
Süzgün bir baxışla, nəzər sal bəri,
Nədən mataf qılmış, Yaradan səni
Niyyətim oduna qızınmaq narın...
* * *
Günəşdən nur alan, gülüzlü dilbər,
Çox uzun zamandı, yoxdu bir xəbər
Sükutdan payını alıbdı əllər,
Mizrabam, oylağım sinəsi tarın...
* * *
Ustac  nagümana, əli göydədi,
Gözəl nazsız olmaz, rufi-ədətdi,
Ruhu, hüzurunda ərzi-biətdi,
Təmənnası, olmaq qonağı yarın...
14.07.2013. Bakı.

HƏBİBİ

**(Amr Diabın  mahnısına uyğulama)**

Bir gecəlik biz unudub, hamını
Nə olar, ləzzətin duysaq sevginin???
Deyərdim, bir mələk  olub qonağım,
Sən də bəhrəsini görərdin eşqin...
*     *     *
Əzizim, bir  gecə unut, keçmişi
Qollarım belində, qoy kəmər  olsun...
Həyatın yeganə gecəsi kimi,
Dünya  ikimizə  bir saray olsun...
*     *     *
Yaşamın  səbəbi, qoy  eşqin olsun!!!
Deyirsən, xoş  günlər  önümüzdədir...
Hər  gün  əvvəlkindən daha xoş olsun!!!
Əl-ələ tutuşmaq   əlimizdədir...
03.01.2014. Bakı.

AĞ ÇİÇƏYİM

Qış tüğyan edirdi ömür bağında,
Hamı süst yatırdı ağ yorğanında,
Qəfil gördüm səni bar budağında,
Xoş gördük, GÜN AYDIN, ay Ağ çiçəyim!

* * *

Dümağsan, qar sənin yanında qara,
Tanrım rüsxət verib, baxmayıb qara,
Bu, qarlı qış hara, tər çiçək hara,
Xoş gördük, GÜN AYDIN, ay Ağ çiçəyim!

* * *

Əllərim pak deyil oxşayım səni,
Həddim o hədd deyil qoxlayım səni,
Bağbanam borcumdur yoxlayım səni,
Xoş gördük, GÜN AYDIN, ay Ağ çiçəyim!!!

06.05.2010. Bakı.

## GƏL ÖYRƏT MƏNİ

Düşmüşəm hüsnünün sehrinə inan,
Çox azdır bu incə mətləbi qanan,
De görüm qövr edib, alışıb yanan
Odlu bir yaraya su səpərsənmi?

*   *   *

İncə bir təbəssüm aparır məni,
Qovursan dünyamdan dumanı, çəni
Allahım  bir mələk göndərib səni
Şəfalıq bir kəlmə söz deyərsənmi?

*   *   *

Xəstənin dərdinə dərman təbibim
Nə qədər nazənin, nə qədər həlim
Bütün elmlərdən arif müəllim
Bisavad Zaura dərs verərsənmi?

06.11.2009.Bakı.

# YOL GÖSTƏR

Əcəb xalın var, imiş tər sinədə
Gözəlliklər tək-tək çıxır aşkara.
Xoş vaxtına düşüb, qələm çəkəndə
Heçnə əskiltməyib, şükür Muxtara...

*     *     *

Nə qədər gözəlsən, nə qədər şirin,
Dünyamda şahısan sən gözəllərin,
Sənintək gülərüz, gözəl dilbərin
Hüsnündə eyib yox, adam axtara.

*     *     *

Deyirlər xalların olur xatası,
Sirlidir Zaurun yeni butası,
Bir dəryasan, naməlum çox adası,
Səyyah naşı, çətin tapıb qurtara...

24.11. 2009. Bakı.

MƏQAM

Bircə əsən meh olaydım,

Toxunaydım, yanağına.

Ya da, Kürün suyu olub,

Üz qoyaydım, ayağına.

*      *      *

Deyirəm ki, nə xoşbəxtdir,

Sizin evin daş-divarı,

Səhər, axşam seyr eləyir,

Sənin kimi xoş gülzarı.

*      *      *

Hətta Günəşin özü də

Xoşbəxt saya bilər özün...

Necə olsa gündə bir yol

Görür əsil Nurun özün.

*      *      *

Buludların ağlamağı

Boşa deyil, səbəbi var.

Təmas etmir, gül hüsnünə

Axı sənin çətirin var...

06.12. 2009. Bakı.

## “ƏZİZİM”

Bir “əzizim” kəlməsinin istisi,

Gözlərimdən könlüməcən yayıldı.

Ruhun ani eşidildi cikkəsi,

Təlatümdən cismim tamam bayıldı...

*      *      *

Bir kəlmənin hərarəti buncasa,

Əl əlimə dəysə, canım yandırar...

Təlatüm yanında təzad da varsa,

Göz gözümə baxsa, ruhum  dondurar...

03.01.2010. Bakı.

## HEKAYƏ

Gecəylə, Gündüzün qovuşmağını,
Seyr etdim bu gecə,
Dan üzü Ayla,
Gecəyə ulduzlar çalırdı layla,
Gündüz oyanırdı işvəylə, nazla...
Elə həzin-həzin, çox ustufluca
Qaranlıq, aydınlıq oldu yavaşca.
Ətrafda quşların gəlirdi səsi,
Artıq hiss olunur yazın nəfəsi.
Ay da qərib-qərib süzürdü göydən
Elə bil xəbəri var idi yerdən...
Sanki hiss edirdi baxıram ona,
Anbaan ağarıb, solan oğlana.
Günəşi bir yerdə olsa da Ayla,
Ani görüşürlər, incə eyhamla.
Günəşi bir anlıq görsə də ancaq,
Bütün gün gizlindən ona baxacaq.
Ayın iltifatı öz Günəşiylə,
İnan lap eynidir mənim səninlə...
07.03.2010. Bakı.

# SƏN ANLARSAN...

Elə bir haldayam anlayar yalnız
Günü mənim kimi başa vuranlar.
Yanında adam çox, özüsə, yalqız
Tək ümid oxunu daşa vuranlar.

*     *     *

Ömür yolum düşüb, yenə dumana,
Bel bağlamaq istəmirəm, gümana,
Dərdim aşdı, daşdı, döndü ümmana
Məni anlar, tənha yaşa dolanlar...

*     *     *

Yeganə təsəllim güc verir mənə,
Şükür o, günə ki, rast oldum sənə,
Bundan o tərəfi gəlmir eynimə,
- Nə xoşbəxtdir, ruhu qoşa olanlar...
15.03.2010. Bakı.

ÖNÜNDƏ

Bənövşələr boyun büküb önündə,
Üzünə baxmağa, üzü gəlməyir.
Hüsnünə baxmağa, cəsarəti yox,
Üzür diləməyə, sözü gəlməyir.
* * *
Eşitmişdi, - "dərib döşə taxarlar"
İnanmazdı, heç, önünə çıxarlar,
Qısqanc-qısqanc, altdan-altdan baxarlar,
Düzünə baxmağa gözü gəlməyir.
* * *
Əyib qamətini, təzim edərlər,
Nəinki, bənövşə, bütün çiçəklər,
Üzünü gizlədər, bütün gözəllər,
Hamısı bikefdir, üzü gülməyir.
16.03.2010. Bakı.

# BİLMİRƏM

Zauru unutdun deyən biryolluq,
Ümidi günlərin birinə qalıb.
Çar-naçar oturub, naməlum sonluq,
Əlacı fələyin felinə qalıb...
*     *     *
Günləri atmısan, günlərin üstə,
Demirəm, xürrəmsən, günü ahəstə,
Düzü mat qalmışam, səndəki şəstə,
Demirsən, bu, yazıq nə günə qalıb?
*     *     *
Fələk yaman oyun oynayır bizlə,
Oğulsan, felin tut, gərdişin izlə,
Bilmirəm, nə deyim heç hansı üzlə,
Nə olub, nə olar tək sənə qalıb...
19.04.2010. Bakı.

# NİYƏ

Bir gülüzlü alıb, başdan əqlimi,
Görən gündən lap olmuşam, sərsəri,
Bir baxışla dəyişibdi iqlimi,
O, baxandı, daha baxmır, heç bəri...
* * *
Tanrı bəxş edibdi, hər şeyi bir-bir,
Bütün gözəlliklər yalnız sənindir,
Əfsus ki, insafın bir azca kəmdir,
İnsaf et, nəzər sal, bu yana pəri...
* * *
"Gözəl nazsız olmaz"- deyib atalar,
Adətdir, söz alıb, işvə satarlar,
Pozulmaq üçündür, bütün qaydalar,
Nazı qoy kənara, bir də bax bəri...
20.04.2010. Bakı.

# HAÇAN

Bir ümman içinə atmısan məni,
Yalqız bir adada tənha qalmışam...
“Birdən”-siz, filansız səni biləni,
Ötən hər saniyə oda yanmışam...

*    *    *

Günəşin dan yeri, qürub çağı da,
Yatağa girəndə, səhər qalxanda,
Əlimdəki qələm, hətta kağız da,
Səni andırırlar, donub qalmışam...

*    *    *

İçindən qor edən ocağam, bəli,
Közün usta qoyub, bir mələk əli,
Tək özünə məlum, həm fəndi, feli,
Bircə püf eləsə, qora dolmuşam...
05.05.2010. Bakı.

# GƏL

Ümiddən bir çələng hörmüşəm, gülüm.

Nə vaxtdır rəfində gözləməkdədir...

Dünyamda bir dünya qurmuşam, gülüm.

Haçandır üfiqdə bəkləməkdədir...

*      *      *

Gəl, nazı-qəmzəni sən qoy boxçaya,

Arzu-istəyini çıxar taxçaya,

Bu nədir, dönmüsən əntiq axçaya,

Cəmalın yad nəzər süsləməkdədir...

*      *      *

Ustacı etmisən, özünə möhtac,

Gözünün gülməsi, üzünə möhtac,

Ruhunun dinməsi, sözünə möhtac,

Həp ruhum, ruhunu izləməkdədir...

11.05.2014. Bakı.

ÜRƏYİM

Gəl aldatma nə özünü, nə məni
Bunca sevə bilməz heç kim, bil səni
O qədər, biləndən sevibdir səni
Acımasız, bəlkə qansız ürəyim...

*      *      *

Acımasız, çün dünyayə biganə,
Bəlkə qansız, nədən böylə miyanə?
Qiyası yox, çün sığışmaz nizamə,
Nədənlərsiz sevib səni ürəyim...

*      *      *

Sayəndə adım da qonaq dil-dişə,
Ustacın təni də çəkilib şişə,
Teşt-teşt su aparan bu xəmir bişə...
Bu oruca iftar yoxmu, ürəyim???

17.05.2014. Bakı.

SÜKUT

Özünü özündən qaçaq salmısan,

Məskəni, sükutun zirvəsindədir...

Görürəm, ruhunla qaça-qovdasan,

Xəyallar, xülyanın ötəsindədir...

*     *     *

Bəlkə, boğmayasan bunca özünü,

Ruhunu azad et, tapsın özünü,

Lap, bilmək istəsən sözün düzünü,

Sözsüzlük, sözlərin itməsindədir...

*     *     *

Sevdiyin mahnı da deyildiyi tək

Həbibi, hamını bəlkə tərk edək???

Kimsələr olmayan diyara gedək...

Yenilik, köhnənin bitməsindədir...

17.05.2014. Bakı.

# GƏRƏK

Dünya çiçəkli bir çəmən,

Gərək, tikan dərməyəsən….

Nə çox qəmzəli güləyən,

Gərək, üzə gülməyəsən….

*   *   *

Aydan-arı, Gündən-duru,

Əli, ayağı qupquru,

Nə çoxdu xoş sima hürü,

Gərək, küyə  getməyəsən….

*   *   *

Ustac, dünyada düz hanı?

Bilən bilir, yox yalanı,

Düşün, tor tutub aranı,

Gərək, çox şey görməyəsən….

12.10.2014. Bakı.

## OXŞAMIR

*(Özünə təskinlik verib, ovutma...)*

Keçər deyib, ayran qatma aşına,
Əldə barmaq, bir-birinə oxşamır.
Əbəs yerə heç kim vurmaz başına,
Teldə qarmaq, bir-birinə oxşamır.

*      *      *

Bu dünyaya yumruq sıxıb, gələrik,
Əli göydə, baş alovlu gəzərik,
Gedəndə də göz yumulu gedərik,
Üstə torpaq, bir-birinə oxşamır.

*      *      *

Ustac deyər, söz gələn yer naməlum,
Yaradan de, ya Tanrı de, ya Qəyyum,
Dədələrin ibrətindən bu məlum;
Xəstə, dabaq bir-birinə oxşamır...

18.05.2014. Bakı.

BU  GÜNDÜ

Keçər deyib, surat asma üstünə

Keçməz dedim, demək keçməz, yəmindi.

İçə atıb,  yükü alma üstünə

Dəyməz dedim, demək dəyməz, əmindi.

*      *      *

Qıyma, səni həzm eləyə xəyallar,

Mülayimi yem eləyər xəyallar,

Bir az sərt ol, ram olacaq xəyallar,

Əyməz dedim, demək əyməz, həmindi.

*      *      *

Ustac deyər, sözdü dedim, uca tut!!!

İnanmırsan,  lap inanma, xoca tut!!!

Keçən keçib, sabahı da heçə  tut!!!

Yox bilinməz, sənin günün bu gündü...

28.05.2014  Bakı.

ÇIX

Biçarə aşiqdə qalmayıbdı can,
Dilə çix, fayda yox ürək sözündə....
Bərzəxdə yaşamaq zordan zor inan,
Felə çıx, işartı görüm üzündə....
* * *
Nədən gen qaçırsan, bilməm ki, məndən,
Görsət gül üzünü, Gün şıxsın çəndən,
Qəlbinin səsini duyuram bəmdən,
Zilə şıx, arzular gülsün gözündə....
* * *
Ustacı qoymusan çölün düzündə,
Sarı güllər bitib, çoxdan izində,
Haçansa talemiz gülər bizim də,
Fala çıx, hikmət var elin sözündə....

23.07.2015. Bakı.

FİTNƏKAR

Dodaqların baldır, dedim

Arı kimi sancdın məni….

Yanaqların aldır, dedim

Alov kimi sardın məni….

*  *  *

Atəşi  əli ucunda,

İynəsi dili ucunda.

Kəməndi teli ucunda,

Felə fəda etdin məni….

*  *  *

Ustac olub, xal əsiri,

“Fitnə” quran fel əsiri,

Qəlbi şirin dil əsiri,

Ruhu talan etdin məni….

06.12.2015. Bakı.

Görüm

Üzünü üzümə uzaq tutmusan,
Görüm, üzün üzə üz ilə gülsün....
Gözünü gözümə duzaq qurmusan,
Görüm, gözün gözə naz ilə gülsün....

*   *   *

Yaradan yadını yad tutub mənə,
Yadım heç, yadını yad tutub mənə,
Doğmam, doğmalığın yad  tutub mənə,
Görüm, gül camalın nur ilə gülsün....

*   *   *

Zaur zəvvarlıqdan qalıb kənarda,
Həcərül Əsvədim, Zəm-zəm iraqda,
İhramım bükülü qalıb qıraqda,
Görüm, arzuların üzünə gülsün....

17-24.05.2015. Bakı.

Gülsün

Bir baxıb, baxmamaq olurmu, Gülüm?
Dil qəlbin oxusun, göz gözə gülsün...
Qaynayıb, axmamaq olurmu, Gülüm?
Sözlər gül qoxusun, göz gözə gülsün...

* * *

Al rəngli tər qönçə bəzək gül üzə,
Ruhun mehman ola, gəzək gül üzə,
Süz dolsun qədəhlər içək, gül üzə,
Üz üzə toxunsun, göz gözə gülsün...

* *

Ustacam, söyləməm, heç zaman yarın,
Çoxdan cəzbindəyəm, sənin tək yarın,
Əgər, inanmırsız bu qəlbi yarın,
Arzular qovuşsun, göz gözə gülsün...

22.05.2015. Bakı.

Gör

İçimi içindən yeyən arzular
Qorx, bir gün yığışıb canımı üzə,
Neyləyim, bu könül səni arzular
Bax, nələr gözümdə çıxıbdı üzə...

*      *      *

Demirəm, özünü gəl unut tamam,
Bunu istəmirəm, mümkünsüz, tamam,
Səndən istəmirəm, bir baxış tamam,
Gözucu bir nəzər ayıbmı üzə???

*      *      *

Gör, işin harası dil açıb Ustac,
Xəfif təbəssümə qalıbdı möhtac,
Əlacı onadı eləyib merac,
Günəşin səmt tutub, yön alıb üzə...

24.05.2015. Bakı.

# GÖZÜN GÖZÜ

Gülən gözün gözəlliyi gözəldir,
Gülən gözü görünməyən göz görər....
Gözün gülür, gözün gözü gülməyir,
Gözdə gözü görünməyən göz görər....

* * *

Gözü gözdən gözün gözü gizlədir,
Gözdə gözü gözün gözü gizlədir,
Gözün gözü gözümüzdə gizlidir,
Gizli gözü görünməyən göz görər....

* * *

Göygöz giryan, gözü gülməz, gülümsər,
Gülən gözün gözü gözdən gülümsər,
Gülməyən göz, gözə gözdən gülümsər,
Giryan gözü görünməyən göz görər......

21.09.2015. Bakı.

SEV

Sən sev, səni sevəni, seçibdi sevgi səni,

Sevməyəni sevənlər sevgisində suçludur....

Sevdiyini söyləyən, seçibdi sevgisini,

Sevgisin sezdirməyən sevgisində suçludur....

*    *    *

Sevgi, sevib- sevilmək, sevənin  sevincidir,

Sevgi,  sonsuz səxavət, sevdanın sonucudur,

Sevgi, sona sərmayə, sabahın sulqucudur,

Sevgisin sezdirməyən, sevgisində suçludur....

*    *    *

Sevdalının sevgisi, sirli, sonsuz, sınırsız,

Sevib, sezdirməməyi sultanlıqmı  sanırsız????

Sevməyəni sevməyi sədaqətmi sayırsız????

Sevdiyini sevdirən sevgisində suçludur....

23.09.2015. Bakı.

BİLİRƏM

Bilirəm qəlbində yuva qurmuşam,
Bəlkə də sinənə yara vurmuşam,
Bilmirəm heç yönü hara durmuşam,
Səni görən gündən qibləm itibdi....

* * *
Verdiyin salamı ala bilmədim,
Dedn qal yanımda, qala bilmədim,
Sənin istədiyin ola bilmədim,
Gərək əfv edəsən, səriştəm kəmdi ..

* * *
Ustacın ürəyi yuxadan yuxa,
Nə vara inanır, nə də ki, yoxa,
Tutuşub fələklə kim yıxa, yıxa,
Sən qahmar durmasan inan ki, təkdi....

03.12.2015. Bakı.

# *Maraq üçün*

Zaur Ustac 8 yanvar, 1975-ci ildə Bakı şəhərində anadan olmuş, ilk təhsilini Ağdam rayonunun Yusifcanlı kənd orta məktəbində almış, ardıcıl olaraq Bakı Dövlət Universitetində, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində davam etdirmişdir. Birinci Qarabağ müharibəsinin iştirakçısı və halhazırda ehtiyatda olan zabitdir. Zaur Ustac 1988-ci ildən etibarən dövri mətbuatda çıxış edir. Zaur Ustac «Yazarlar» jurnalının təsisçisi və baş redaktorudur. Zaur Ustac «GÜNAYDIN“ («AĞÇİÇƏYİM”), “İSTƏMƏZDİM ŞAİR OLUM HƏLƏ MƏN”, “GÜLZAR”, “ŞEHÇİÇƏYİM”, “MƏHDUD HƏYDTIN MƏCHUL DÜŞÜNCƏLƏRİ”, “MUM KİMİ YUMŞALANDA”, “BAYATILAR”, “BALÇİÇƏYİM”, “GÜLÜNÜN ŞEİRLƏRİ” “SEVİN Kİ, SEVİLƏSİZ…”, “QƏLBİMİN  AÇIQCASI”, “USTADNAMƏ”, “NİŞANGAH”, "ÇƏHRAYI  KİTAB",  "OTUZ İLDİR, ƏLDƏ QƏLƏM"   kimi şeirlər kitablarının, "USUBCAN  ƏFSANƏSİ" adlı  məqalələr toplusunun  və Azərbaycan Respublikasının Milli Qəhrəmanı Gizir Mübariz İbrahimovun əziz xatirəsinə həsr olunmuş “ ORİYENTİR ULDUZU” kitabının müəllifidir.

***Ustaca görə, yazarlar, ancaq yazarlar... Yəni şübhəsiz ki, hikmət və söz  Uca Tanrıya məxsusdur.***

***Biz sadəcə diktə olunanları qələmə alan, qələm tutan qullarıq- qələmin sahibi də odur...***

***- Ustaclıyam, əlim ərşi-əlada,***

***Bu nə sitəm, millətim nə bəlada???!!!***

Zaur USTAC

(Mustafayev Zaur Mustafa oğlu)

# “QƏLBİMİN AÇIQCASI”

*(Seçmə şeirlər)*

Elektron nəşr:

Texniki redaktor: Tunc AY

Tərtibatçı: Gülü

Kitab “Yazarlar”-ın kompüter mərkəzində yığılıb.

Təşkilati dəstək: www.ustac.az *(Qeyri- kommersiya)*

*Elektron Kitab Zaur Ustac yaradıcılığının “30” illik yubley tədbirləri çərçivəsində nəşr olunan 15-ci kitabdır.*

*(Y-30-EK-15-ZU)*

Bütün hüquqlar müəllifə məxsusdur.

Çapa imzalandı: 21. 04.2018.

Əlaqə: zauryazar@mail.ru

Pulsuz.

F/b: **Zaur Ustac**

Qeyd:




Üzqabığının müəllifi, Gülü xanımdır.